RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 124 (8440) ÇƏRŞƏNBƏ, 1 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlət turizm sektoruna dəstəyini davam etdirəcək

**İyunun 30-da BMT-nin Ümumdünya Turizm Təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu təşkilatın Baş katibi Zurab Pololikaşvili arasında videokonfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Zurab Pololikaşvilini salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Hər vaxtınız xeyir, hörmətli Baş katib. Sizi görməyə şadam. Yenidən görüşmək və ümumi işlər barədə danışmaq üçün yaxşı imkan yaranıb. Əlbəttə, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik. Buna görə təbiidir ki, sizin üzərinizə əlavə yük düşüb. Ona görə ki, əvvələn, pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Keçən il rekord göstərici qeydə alınıb - 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Faiz nisbətində desək, turist axını təqribən 15 faiz artıb. Son 4-5 ildə orta illik artım göstəricisinin 10-24 faiz həddində olmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahə çox geniş vüsət alıb. Biz şadıq ki, özəl sektor bu sahəyə fəal sərmayə qoyur, dövlət də dəstək göstərir. Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək. Odur ki, mühüm məsələlər barədə danışmaq təşəbbüsünə görə sizə təşəkkür edirəm. Sizi yenidən görməyimə şadam.

**Zurab POLOLİKAŞVİLİ:**

- Cənab Prezident, ilk növbədə, bu görüş üçün vaxt ayırdığınıza, bir daha ünsiyyətdə olmaq, söhbət etmək imkanına görə Sizə təşəkkür edirəm. Düz bir il bundan əvvəl, iyun ayında Bakıda olmuşuq, bizim İcraiyyə Şurasının iclası keçirilib. İcraiyyə Şurasının iclası bizim təşkilat üçün ən mühüm hadisələrdən biridir. Səmimi qonaqpərvərlik üçün bir daha təşəkkürümü bildirmək istəyirəm. Bütün qonaqlar çox razı qaldı, hər şey yaxşı oldu. Siz düzgün qeyd etdiniz, bu pandemiya bütün dünyanı çənginə alıb, 2-3 aydır ki, bütün dünya bağlıdır, 150-yə yaxın ölkənin sərhədləri hələ də açılmayıb. Bəlkə də ən çox itki, ən böyük böhran ilə üzləşən turizm sektoru olub, nəinki Azərbaycanda, bütün dünyada tarixdə belə hal olmamışdı. İndi biz heç vaxt görmədiyimiz böhran içindəyik. Bu günə qədər ümumi itkilərin həcmi təqribən 1 trilyon 500 milyon dollara bərabərdir.

BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili son 2 ayda təşkilatın həyata keçirdiyi işlərdən danışaraq qeyd etdi ki, qurum tərəfindən ilk gündən regionlar üzrə fəal ölkələrin, aidiyyəti beynəlxalq təşkilatların daxil olduğu böhran komitəsi yaradılıb, "Evdə qal ki, sabah səyahət edəsən" adlı kampaniya elan olunub. Azərbaycanla Ümumdünya Turizm Təşkilatı arasında əməkdaşlıqdan danışan Zurab Pololikaşvili mehmanxanaların sertifikatlaşdırılması üzrə layihənin dövlətimizin başçısı və təşkilat tərəfindən dəstəklənməsini məmnunluqla vurğuladı.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Əvvələn, əməkdaşlığa və Azərbaycanda turizm sektorunu dəstəklədiyinizə görə sizə təşəkkür edirəm. Görüşümüz yadımdadır. O zaman siz nisbətən yaxın vaxtda Ümumdünya Turizm Təşkilatının Baş katibi kimi mühüm vəzifəyə seçilmişdiniz. Zənnimcə, sizin ilk səfərlərinizdən biri Azərbaycana olub. O vaxt biz görüşdük və hətta birlikdə turizm sərgisinə getdik. Beləliklə, görüşlərimizi xatırlayıram və keçən il Bakıda Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının iclasında iştirak etdiyinizə görə də sizə təşəkkürümü bildirmək istərdim. Belə bir mühüm beynəlxalq təşkilatın həmin Şura iclasının Bakıda keçirilməsini biz Ümumdünya Turizm Təşkilatı tərəfindən dostluq və dəstək əlaməti kimi qiymətləndiririk.

Əlbəttə, sizin tövsiyələriniz çox qiymətlidir, biz postpandemiya dövründə onlara riayət edəcəyik. Ona görə ki, siz qeyd etdiyiniz kimi, pandemiya dövründə dünya ölkələrinin çoxu, o cümlədən Azərbaycan da öz sərhədlərini bağlayıb. Bizim sərhədlərimiz indiyə qədər bağlıdır, onlar yalnız vətənə qayıtmaq istəyən Azərbaycan vətəndaşlarının qəbulu üçün və Azərbaycanı tərk etmək istəyən əcnəbilərin getməsi üçün açıqdır. Bu, onunla bağlıdır ki, biz, ilk növbədə, insanların təhlükəsizliyi, sağlamlığı, onların həyatı barədə düşünürük. Əlbəttə, virusun Azərbaycana kənardan gətirildiyini nəzərə alaraq hesab edirik ki, indiki mərhələdə yeganə düzgün yol sərhədlərin bağlanmasıdır. Lakin, eyni zamanda ümid edirik ki, pandemiya zəiflədikcə, o cümlədən bizim sıx əməkdaşlıq etdiyimiz Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməklə biz də sərhədləri açacağıq. Bunun nə vaxt baş verəcəyini demək çətindir. Lakin bu, baş verən kimi, əlbəttə, turizm sektorunun bərpasına dair sizin tövsiyələriniz çox gərəkli olacaq.

Bu dövrdə biz nə etmişik? Biz turizm sektorunun işçilərinin əməkhaqqının çox hissəsini ödəmişik ki, onların dolanışıq üçün vəsaiti olsun və bu sahədə sahibkarlar kadr potensialını qoruyub saxlaya bilsinlər. Mənə təəssüflə məruzə edirlər ki, işçilərin sayı müəyyən qədər ixtisar edilir. Buna görə mən hökumətə təlimat vermişəm ki, bu məsələyə baxılsın və turizm sektorunun dəstəklənməsi davam etdirilsin. Ona görə ki, siz yaxşı bilirsiniz, bu potensialı artırmaq çox çətin və məsul məsələdir.

Ardı 2-ci səh.

# Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir.

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır.

Azərbaycan Respublikasında milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi məqsədilə, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*



# Azərbaycan diplomatiyasının növbəti uğuru

Koronavirus pandemiyası ilə bağlı dünyada gedən proseslər göstərir ki, yoluxucu xəstəliyin qarşısının alınması və yaranmış vəziyyətdən çıxış yolunun tapılması üçün qlobal xarakterli birgə tədbirlərin görülməsinə ehtiyac var.

Hələ COVID-19-un yayılmağa başladığı ilk dövrlərdə Prezident İlham Əliyev pandemiyaya qarşı mübarizənin beynəlxalq təşkilatlar səviyyəsində aparılmasının vacibliyini nəzərə almış və onun təşəbbüsü ilə 2020-ci il aprelin 10-da Türk Şurasının videokonfrans formatında fövqəladə Zirvə görüşü keçirilmişdir. Bu tədbirin tarixi-siyasi əhəmiyyəti ondadır ki, dünyada ilk dəfə olaraq beynəlxalq təşkilat çərçivəsində, dövlət başçılarının iştirakı ilə bəşəriyyəti narahat edən COVID-19-un fəsadları, onun insanların sağlamlığına və ölkələrin sosial-iqtisadi təhlükəsizliyinə yaratdığı təhdidlər müzakirə edilmişdir.

Ardı 5-ci səh.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# İlham Əliyev dialoq mühitinin formalaşmasında güclü siyasi iradə nümayiş etdirir

**AMİP sədri Arzuxan ƏLİZADƏ:** "Dövlət başçısının tapşırığı əsasında partiya rəhbərləri ilə görüşlərin keçirilməsi hakimiyyətin ölkədə yeni siyasi münasibətlər sisteminin formalaşmasında maraqlı olduğunu göstərir"

Prezident İlham Əliyevin elan etdiyi köklü islahatlar cəmiyyət həyatının bütün sahələrində öz əksini tapır. Yeni siyasi konfiqurasiyanın formalaşması istiqamətində atılan addımlar isə islahatların konkret istiqamətlər üzrə məhdudlaşmayaraq, kompleks xarakter daşıdığını göstərir. Bu sırada diqqəti çəkən məqam ondan ibarətdir ki, hakimiyyət müxalif siyasi partiyaların da bu prosesdə fəal iştirakını dəstəkləyir.

## Prezident atılacaq addımları göstərdi

Bununla bağlı fikirlərini öyrəndiyimiz Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə bildirdi ki, altıncı çağırış Milli Məclisin yeni tərkibdə keçirilən ilk iclasında, eləcə də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə Prezident İlham Əliyev bir çox məsələlərə münasibət bildirməklə yanaşı, bundan sonra atılacaq addımların konturlarını da cızaraq, sosial-iqtisadi, eləcə də siyasi sahədə islahatların aparılmasının vacibliyi ilə bağlı konkret fikirlər səsləndirdi: "Prezident qeyd etdi ki, 2020-ci il ölkəmizin tarixinə dərin, geniş islahatlar ili kimi daxil olacaq. Həmin çıxışlardan da anlaşılan odur ki, bir çox sahələrdə, xüsusilə də siyasi sistemin təkmilləşdirilməsi istiqamətində daha ciddi, önəmli addımlar atılacaq və yeni siyasi konfiqurasiyanın formalaşdırılması prosesi həyata keçiriləcək.

Prezidentin çıxışlarında, həmçinin struktur və kadr islahatları ilə bağlı mühüm qərarların qəbul olunacağı anonsu da verilib və deyim ki, həqiqətən də, sonrakı mərhələdə deyilənlərlə bağlı bir sıra ciddi addımların atıldığının şahidi olmuşuq. Buna misal olaraq hesab edirəm ki, dövlət başçısının bilavasitə tapşırığı əsasında siyasi mövqeyindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən bütün siyasi partiya rəhbərləri ilə heç bir ilkin şərt qoyulmadan tanışlıq görüşlərinin keçirilməsi, eyni zamanda müxtəlif məsələlərlə bağlı partiyaların təkliflərini qəbul etmək istəyi, əlbəttə ki, bir ilk olmaqla, həm də hakimiyyətin ölkədə yeni siyasi münasibətlər sisteminin formalaşmasında maraqlı olduğunu göstərdi. Həmçinin bu günə qədər aparılan kadr islahatları, Prezident Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclis aparatının yenidən təşkili, seçkilərdən sonra parlamentin tərkibində baş verən dəyişikliklər, bu sırada parlamentin rəhbər qurumlarının tamamilə yenilənməsi, parlamentdə azlıqda olan partiya nümayəndəsinin Milli Məclis Sədrinin müavini vəzifəsinə seçilməsi, eləcə də parlament azlığının Milli Məclis komitələrində rəhbər vəzifələrə gətirilməsi ortada ciddi siyasi iradənin mövcudluğunun sübutu kimi qəbul oluna bilər".

Ardı 6-cı səh.



# Artırılan cərimələr məsuliyyətsizliyin nəticəsidir

Qlobal pandemiya elan edilən yeni növ koronavirus (COVID-19) hələ də Yer üzündə sürətlə yayılmaqda davam edir. Xəstəliyin ilkin mərhələsində müəyyən azalmalar müşahidə edildiyindən atılan yumşalma addımlarından sonra vəziyyət yenə də eyni böhranlı hala düşdü. Bunun da səbəbi insanların qaydalara əməl etməməsidir.

Hazırda dünya ölkələri çıxış yolu kimi yenidən sərt karantin rejiminə qayıdır. Amma dəfələrlə vurğulandığı kimi, uzun sürən karantin rejimlərinin özü də elə pandemiya qədər təhlükəli nəticələrə səbəb ola bilər.

Dəmək olar ki, hər ötən gün Ümumdünya Səhiyyə Təşkilatı vəziyyətin pisləşməsi ilə bağlı üzücü açıqlamalar verir.

Ardı 4-cü səh.

# Dövlət turizm sektoruna dəstəyini davam etdirəcək

*Əvvəli 1-ci səh.*

Azərbaycanda biz bu istiqamətdə çox fəal irəliləmişik. Əvvəlcə infrastruktur layihələrindən, ölkəmizin təqdimatı ilə bağlı layihələrdən, sərgilərdə iştirak etməkdən, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsindən başladıq. Deməliyəm ki, Azərbaycanda turizmin sürətli inkişafı çox cəhətdən "Formula-1" yürüşlərinin keçirilməsi ilə bağlı idi. Birinci yürüş keçiriləndən dərhal sonra turizmin artmasını gördük. Dediyim kimi, hər il bu potensial artır və müxtəlif məlumatlara görə, əcnəbilər Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar pul xərcləyirlər. Yəni bu, bizim iqtisadiyyata böyük valyuta axını deməkdir. Buna görə də turizm sənayesinin yaradılması üçün çox böyük qüvvə sərf etmişik və hotel biznesi ilə məşğul olan iri firmalar, dünyanın aparıcı brendləri Azərbaycana gəliblər. Bunu nəzərə alaraq, əlbəttə, biz bu sahəni itirə bilmərik. Biz kadr potensialını, qazanılmış təcrübəni qoruyub saxlamalıyıq. Buna görə dövlət bu sahəni dəstəkləyəcək.

Lakin, əlbəttə, postpandemiya dövründə işi daha düzgün görmək üçün bizə sizin təşkilat tərəfindən tövsiyələr lazımdır. Biz buna çox ümid edirik. Əminik ki, sizin verəcəyiniz məsləhətlərə əməl edəcəyik və onları həyata keçirməklə çalışacağıq ki, bu sahəni maksimum qısa müddətdə bərpa edək. Hərçənd bu, asan olmayacaq. Əlbəttə, biz turizm sahəsində aparıcı ölkələrin, böyük təcrübəyə malik olan və özlərinin iqtisadi inkişafında müəyyən dərəcədə, əhəmiyyətli dərəcədə turizm sektoruna güvənən ölkələrin atdığı addımları diqqətlə izləyəcəyik, lakin əlaqələrimizi də davam etdirəcəyik. Əminəm ki, imkan yaranan kimi sizi yenidən Azərbaycanda görəcəyik.



**Zurab POLOLİKAŞVİLİ:**

- Sağ olun, cənab Prezident. Siz hər şeyi çox gözəl qiymətləndirdiniz. Mən özəl sektoru bu cür dəstəklədiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

Ona görə ki, Siz çox yaxşı qeyd etdiniz, Sizin rəhbərliyinizlə sərf olunmuş qüvvəni və qoyulmuş sərmayələri öz gözümlə görmüşəm. Son 3-5 ildə ölkənizdə turizmə aid rəqəmlərin necə dəyişməsini özüm görmüşəm. Məsələn, "Formula-1" kimi layihələr, mehmanxana biznesinə kapital qoyuluşu - bütün bunlar rəqəmlərlə əks olunub. Bizim ilk gündən etibarən ölkələrə göndərdiyimiz tövsiyələrdə özəl biznesə və bu sektorda çalışan insanlara böyük dəstək verilməsindən bəhs edilirdi. Bu dəstəyə görə çox sağ olun.

Bu gün ən vacibi insanlar və onların sağlamlığıdır. Sabahkı günə gəldikdə, Siz çox düzgün qeyd etdiniz ki, biz böyük və inkişaf etmiş ölkələrin bütün yaxşı nümunələrini dəstəkləyəcək və bütün ölkələrə göndərəcəyik. Biz Madriddə, İspaniyada yerləşirik. İspaniya həm özü, həm də turizm biznesi COVID-19-dan zərər çəkmiş ölkələrdən biridir. Onların postpandemiya dövrü üçün çox konkret və çox maraqlı inkişaf planı var.

Biz hökmən Sizinlə əməkdaşlıq edəcəyik və vaxt itirməməyiniz, mövsüm açılan kimi sərhədləri açmağa, ölkənin populyarlaşdırılmasını davam etdirməyə hazır olmağınız üçün Sizə hazır sənəd verəcəyik. Ona görə ki, indi bütün ölkələr öz kampaniyalarına başlamağa hazırdırlar. Hamı beynəlxalq əlaqələrin açılacağı günə hazırlaşmaq istəyir. Odur ki, hər şey artıq hazırdır və biz birbaşa əlaqə saxlayacağıq, bütün yaxşı ideyaları, Azərbaycanın son illərdə nail olduğu rəqəmlərə mümkün qədər tezliklə qayıtmaq üçün istifadə edilə biləcək bütün yaxşı nümunələri çox fəal şəkildə yayacağıq.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Biz Ümumdünya Turizm Təşkilatının tövsiyələrinə riayət edəcəyik. Əlbəttə, dediyim kimi, daha çox inkişaf etmiş turizm sənayesinə malik olan ölkələrin addımlarını müşahidə edəcəyik. Xüsusən ona görə ki, yay mövsümünün az qala üçdəbir hissəsi arxada qalıb. Buna görə yəqin ki, iyul-avqust aylarında ölkələr daha çox açılacaq. Mən dünyada baş verən hadisələri müşahidə edirəm və görürəm ki, turizm istiqamətləri arasında aviasiya əlaqələri artıq bərpa olunur, buna görə biz bu prosesi çox diqqətlə izləyəcəyik.

Eyni zamanda onu da demək istərdim ki, indi, xüsusən pandemiya dövründə biz daxili turizmə böyük diqqət yetiririk. Çünki daxili turizm xarici turizmi tam əvəz etməsə də, hər halda bizim turizm infrastrukturunu, o cümlədən regionlarda müəyyən dərəcədə doldura bilər. Azərbaycan vətəndaşlarının hələlik xaricə gedə bilmədiklərini nəzərə alaraq, əlbəttə, daxili turizm sənayesini dəstəkləyən amil ola bilər. Pandemiya sovuşandan dərhal sonra biz, əlbəttə, öz addımlarımızı çox dəqiq planlaşdırmalıyıq. Bir daha demək istəyirəm ki, səhvə yol verməmək və məhz turizm sahəsinin bərpası istiqamətində addımlar atmaq üçün sizin növbəti məsləhətlərinizi, tövsiyələrinizi gözləyəcəyik.

Əminəm ki, bütün dünyada turizm sahəsi bərpa olunacaq. Bu, birmənalı olaraq belədir, sadəcə, vaxt tələb edir. Biz bu sahəyə sərmayə qoyulmasını bundan sonra da davam etdirəcək, əcnəbi turistlər üçün daha yaxşı şərait yaradacağıq. Ona görə ki, Azərbaycanda buna kömək edə biləcək bütün amillər var: sabit ictimai-siyasi şərait, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, təbiətin müxtəlifliyi, yay turizmi, qış turizmi və Azərbaycan mətbəxi. Belə ki, burada bütün amillər var. Həm coğrafi mövqeyimiz, həm dünyanın müxtəlif ölkələri ilə aviasiya əlaqələrimiz. Buna görə yalnız məqsədyönlü iş və potensialın artırılması, bir də, əlbəttə, məsələn, ölkəyə əcnəbi vətəndaşların böyük axınına mane olan bürokratik əngəllərin aradan qaldırılması lazımdır. Bütün bunlar gündəlikdədir.

**Zurab POLOLİKAŞVİLİ:**

- Sizinlə tamamilə razıyam. Yəqin ki yay tətilləri dövründə bütün dünyada yerli turizm daha çox inkişaf edəcək. İş elə gətirib ki, hələ yanvar ayında 2020-ci ili "Kənd turizmi ili" və "Regional turizm ili" elan etmişik. Biz pandemiya olacağını bilmirdik. İndi ölkələrin regionlarda infrastruktura sərmayə qoyuluşunu bərpa etmələri üçün yaxşı şans var. Bu, regionlarda yeni iş yerləri yaratmağa imkan verəcək. Düşünürəm ki, bu dövrdə yerli turizm daha çox inkişaf edəcək. Bu, ölkələrin regional turizmi inkişaf etdirmələri üçün yaxşı şans ola bilər. Biz Sizinlə hökmən çox sıx əməkdaşlıq edəcəyik. Dəstəyinizə görə çox sağ olun. Sizinlə söhbətimiz bizim üçün çox vacibdir. Ona görə ki, turizmin bütün ölkələrin iqtisadiyyatının ən mühüm amillərindən biri olmasını bütün dünya liderləri təsdiqləyiblər. Əlbəttə, Sizin iştirakınız və fəallığınız bizim özümüzü daha inamlı hiss etməyimiz üçün hamımıza çox kömək edəcək və edir. Əminəm ki, Sizin dəstəyiniz Azərbaycandakı və bütün turizm sektorundakı yerli sahibkarlara böyük təkan, böyük dəstək olacaq. Bizə vaxt ayırdığınıza və bu cür səmimi söhbətə görə Sizə bir daha təşəkkür etmək istərdim.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Bu təşəbbüsünüzə görə sizə bir daha təşəkkür etmək istəyirəm. Şadam ki, Azərbaycan ilə sizin rəhbərlik etdiyiniz təşkilat arasında çox sıx münasibətlər yaranıb. Biz fəal əməkdaşlıq edəcəyik. Sərhədlər açılanda sizi Azərbaycanda gözləyəcəyik. Çox sağ olun.

**Zurab POLOLİKAŞVİLİ:**

- Hökmən görüşəcəyik. Çox sağ olun.

## Kanadanın General-Qubernatoru zati-aliləri xanım Jüli Peyetə

Hörmətli xanım General-Qubernator.

1 İyul - Kanada Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Dostluğa və qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Kanada münasibətlərinin müxtəlif sahələrdə inkişafı üçün böyük imkanlar vardır. Ölkənizin beynəlxalq təşkilatlar çərçivəsində BMT Nizamnaməsi və Helsinki Yekun Aktını rəhbər tutaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstəyini yüksək qiymətləndiririk.

COVID-19 pandemiyası ilə üzləşdiyimiz bu çətin dövrdə Azərbaycan xalqının dost Kanada xalqı ilə həmrəy olduğunu vurğulamaq istəyirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

## Ruanda Respublikasının Prezidenti zati-aliləri cənab Pol Kaqameyə

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Ruanda arasında ikitərəfli əlaqələrin, beynəlxalq təsisatlar, xüsusən də Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın inkişafı üçün imkanlar mövcuddur.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

## Rusiya Elmlər Akademiyasının akademiki xanım Alevtina Brovkinaya

Hörmətli Alevtina Fyodorovna.

Yubileyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm. Mənim ən xoş arzularımı, möhkəm cansağlığı, uğurlar və əmin-amanlıq diləklərimi qəbul edin.

Siz dünya şöhrətli alim və istedadlı həkim kimi göz xəstəliklərinin müalicəsi üçün bir sıra qabaqcıl metodikalar yaratmısınız, onkooftalmologiyanın inkişafına sanballı töhfə vermisiniz.

Oftalmologiya sahəsində Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsində sizin mühüm rolunuzu xüsusi qeyd etmək istərdim. Sizin iştirakınızla Azərbaycanda onkooftalmologiya xidməti yaradılıb, bu xidmət bu gün də respublika əhalisinə yüksək ixtisaslı yardım göstərir.

Əminəm ki, sizin dəyərli təcrübənizə və dərin biliklərinizə çoxsaylı şagirdləriniz və həmkarlarınız tərəfindən həmişə tələbat olacaq.

Əziz Alevtina Fyodorovna, sizi əlamətdar yubileyiniz münasibətilə bir daha təbrik edirəm, sizə ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 30 iyun 2020-ci il*

## A.F.Brovkinanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə, Alevtina Fyodorovna Brovkina "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368, № 5, maddə 814, № 8, maddə 1375) 48.1-ci maddəsinə "vətəndaşlara" sözündən sonra ", o cümlədən sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389; 2019, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddə 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli və 30 mart tarixli 41-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 401-ci maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi qaydalarının pozulması";

2.2. aşağıdakı məzmunda 401.3-cü maddə əlavə edilsin:

"401.3. İdman mərc oyunlarının satıcısı tərəfindən yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına yol verilməsinə görə -

beş yüz manat məbləğində cərimə edilir.";

2.3. 455-ci maddənin adına və 455.2-ci maddəyə "alkoqollu" sözündən sonra "və energetik" sözləri əlavə edilsin.

**Maddə 3.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9, № 11, maddə 1684, № 12, maddələr 1881, 1908) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 9-cu maddənin üçüncü hissəsində "Alkoqol və" sözləri "Alkoqollu və energetik içkilərin, habelə" sözləri ilə, "spirtli" sözü "alkoqollu və energetik" sözləri ilə əvəz edilsin;

3.2. 11-1.1.8-ci maddəyə hər iki halda "alkoqollu" sözündən sonra "və energetik" sözləri əlavə edilsin;

3.3. 20-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri verilir.".

**Maddə 4.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908) 7-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri verilir.".

**Maddə 5.** "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 710; 2001, № 9, maddə 576, № 11, maddə 675; 2003, № 1, maddə 16; 2005, № 4, maddə 278, № 8, maddə 684, № 10, maddə 908; 2007, № 11, maddələr 1049, 1053; 2008, № 8, maddə 699; 2009, № 7, maddə 517, № 8, maddə 611; 2010, № 4, maddə 265; 2013, № 3, maddə 216; 2014, № 2, maddə 79, № 11, maddə 1359; 2018, № 6, maddə 1160, № 7 (I kitab), maddə 1405) 13.1-ci maddəsinə "şərtləri və qaydası," sözlərindən sonra "o cümlədən gənclər təşkilatlarında üzvlərin yaşına dair tələblər," sözləri əlavə edilsin.

**Maddə 6.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582, № 8, maddə 1382, № 11, maddə 1684) 5.7.3-cü maddəsində "içkilərin və" sözləri "və energetik içkilərin, habelə" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088; 2018, № 7 (I kitab), maddə 1382; 2019, № 3, maddə 379) 13.1-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Cəza çəkməkdən azad edilmiş gənclərin əlavə təhsil alması ilə bağlı "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.".

**Maddə 8.** "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 504; 2013, № 3, maddə 224; 2018, № 5, maddə 868) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.0.12-ci maddəyə "çətin" sözündən əvvəl "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri əlavə edilsin;

8.2. 7.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.1.9-cu maddə əlavə edilsin:

"7.1.9. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 5.6.5-ci maddəsinə uyğun olaraq təşkil edilmiş qarşılıqlı yardım qruplarında iştirak etmək.".

**Maddə 9.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797) aşağıdakı məzmunda 53-1.9-cu maddə əlavə edilsin:

"53-1.9. Yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına yol verilmir. Bu maddənin tələbinin pozulmasına görə idman mərc oyunlarının satıcısı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb olunur.".

**Maddə 10.** "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812; 2016, № 11, maddə 1755, № 12, maddə 1996; 2017, № 3, maddə 334, № 5, maddələr 675, 748, № 6, maddə 1029, № 7, maddə 1307, № 12 (I kitab), maddə 2230; 2019, № 1, maddə 29, № 3, maddə 390, № 4, maddə 578, № 8, maddə 1384, № 12, maddə 1881) 12.1.7-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin Qanuna aşağıdakı məzmunda 12.1.8-ci maddə əlavə edilsin:

"12.1.8. energetik içkilərdən istifadə olunması ilə bağlı yetkinlik yaşına çatmayanlara müraciət edilməsi, uşaqlar üçün proqramların (verilişlərin) energetik içkilərin reklamı ilə kəsilməsi.".

**Maddə 11.** "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2220) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.0.12-ci maddədə "içkilərdən və" sözləri "və energetik içkilərdən, habelə" sözləri ilə əvəz edilsin;

11.2. 3.0.3-cü maddədə "içkilərin və" sözləri "və energetik içkilərin, habelə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

# *Hikmət HACIYEV:* “Azərbaycan regional və qlobal səviyyədə koronavirusla mübarizəyə öz töhfəsini verir”




Azərbaycan Respublikası milli, regional və qlobal səviyyədə koronavirusla mübarizəyə öz töhfəsini verir, beynəlxalq səviyyədə olan səyləri yaxından dəstəkləyir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Dünyada koronavirusla bağlı vəziyyət heç də ürəkaçan deyil. Ümumdünya Səhiyyə Təşkilatı və digər aidiyyəti təşkilatlar tərəfindən verilən məlumatlara əsasən, dünya miqyasında koronavirusa yoluxan insanların sayı 10 milyonu ötüb. Ölənlərin sayı isə artıq 500 mindən çoxdur. Son onilliklər ərzində dünyada bu qəbildən pandemiya olmayıb. Ən böyük çətinlik də ondan ibarətdir ki, qarşıda bütün dünya dövlətlərini qeyri-müəyyənlik gözləyir. Koronavirus yalnız səhiyyə, sağlamlıq problemi kimi qəbul edilməməlidir. Koronavirus dünyada çox böyük sosial, iqtisadi, humanitar fəsadlara yol açır”, - deyə Hikmət Hacıyev vurğulayıb.

“Dünya miqyasında koronavirus müharibə kimi qəbul edilməlidir. Bu müharibənin də öz qayda-qanunları var. Müharibə qaydalarının doğurduğu davranış formaları olmalıdır”, - deyən Hikmət Hacıyev daha sonra vurğulayıb ki, dünyanın hər yerində koronavirus təhlükəsi aradan qalxmayınca biz bundan tam sığortalandığımızı deyə bilməyəcəyik. Dövlətlər tərəfindən müəyyən karantin tədbirləri görülür, sonra açılmalar olur və açılmalardan sonra artım müşahidə edilir. Sonradan yenidən karantin rejimləri tətbiq olunur. Bu tendensiyanı bu gün biz Avropa ölkələrində də görə bilərik. Hikmət Hacıyev onu da qeyd edib ki, Nazirlər Kabineti yanında Operativ Qərargah daim dövlət başçısı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti altında fəaliyyət göstərir.

Prezidentin köməkçisi bildirib ki, koronavirus müharibəsi hər bir vətəndaş qarşısında böyük məsuliyyət qoyur. Dövlətin gördüyü tədbirlərdə, qəbul olunan qərarlarda əsas məqsəd vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunmasıdır. Sevindirici hal ondan ibarətdir ki, bu gün Azərbaycanda ölüm miqyası bir o qədər də çox deyil. Lakin biz bu riskdən heç də tam şəkildə sığortalanmamışıq. Bu təhlükə hələ də davam etməkdədir.

## Prezidentin köməkçisi: “Xüsusi karantin rejiminin daha iki həftə uzadılması ilə bağlı rəylər var”

Xüsusi karantin rejiminin iyulun 5-dən sonra daha iki həftə uzadılması ilə bağlı rəylər var. AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanda koronavirusla bağlı məsələlər 24 saat ərzində nəzarətdə saxlanılır, zəruri tapşırıqlar verilir və tədbirlər görülür.

H.Hacıyev qeyd edib ki, ev şəraitində müalicə olunan şəxslərə də dəstək göstərilməsi nəzərdən keçirilir.

## Azərbaycanın təcrübəsindən yararlanan bir çox dövlət var

Koronavirusla müharibədə hər bir məsələdə olduğu kimi, xalq-dövlət birliyi ən vacib prinsiplərdən biri olmalıdır. Azərbaycan vətəndaşlarının bütün digər məsələlərdə olduğu kimi, bu məsələdə də dövlətin yanında olması çox yüksək qiymətləndirilir. Vətəndaşlarımızın mütləq əksəriyyəti də çox gözəl başa düşür ki, dövlətimizin bu siyasətinin təməlində vətəndaşlarımızın sağlamlığı, onların təhlükəsizliyinin təmin olunması dayanır.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Təbii ki, müəyyən istisnalar da vardır. Bu istisnalar hər birimizə çətinliklər yaradır, ölkəmizdə virusun yayılması ilə bağlı xoş olmayan tendensiyaların yaranmasına səbəb olur”, - deyən Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan bu məsələdə digər ölkələrlə də fikir mübadiləsi aparır. Azərbaycanın təcrübəsindən yararlanan bir çox dövlətlər var.

Xaricdə olan vətəndaşlarımızın ölkəmizə gətirilməsi ilə bağlı məsələdən də bəhs edən Hikmət Hacıyev qeyd edib ki, artıq Bakı-İstanbul-Bakı istiqaməti üzrə Azərbaycan Hava Yolları və Türk Hava Yolları şirkətlərinin xətti ilə çarter reysləri təşkil olunur. Burada əsas şərt ondan ibarətdir ki, həm Azərbaycanın, həm də Türkiyənin müəyyən olunmuş aidiyyəti səhiyyə institutları, nazirləri tərəfindən qoyulmuş şəhadətnamələrə uyğun olaraq son 48 saat ərzində etibarlı olan testlər həyata keçirən vətəndaşlar bu imkandan yararlanacaqlar və onlar artıq karantində saxlanılmırlar. Lakin onlar iki həftə evdən çıxmamaq haqqında öhdəlik götürdükləri üçün onlara bu müddət ərzində icazələr verilmir. Digər istiqamətlər üzrə də bu qəbildən olan çarter reyslərinin təşkili məsələsi də nəzərdən keçirilir.

## Dünya ölkələri Azərbaycan Prezidentinin təşəbbüsünü yüksək qiymətləndirir

Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı davam edir. Pandemiya dövründə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında çox sıx əlaqələr qurulub. Ümumdünya Səhiyyə Təşkilatının pandemiyanın ilk vaxtlarında Azərbaycana verdiyi tövsiyələr çox ciddi şəkildə nəzərə alındı və ölkəmiz tərəfindən zəruri tədbirlər görüldü.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Azərbaycan Respublikasının qlobal səviyyədə koronavirusla mübarizədə ən vacib tədbirlərindən biri Prezident İlham Əliyev tərəfindən BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsüdür. Xatırlatmaq istərdim ki, Qoşulmama Hərəkatının mayın 4-də keçirilmiş Zirvə görüşündə Prezident İlham Əliyev BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə əlaqədar təklif irəli sürdü. Bu təklif Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən razılaşdırılaraq BMT-nin Baş katibinə müraciət edildi. Baş katib tərəfindən də Baş Assambleyanın prosedur qaydalarına uyğun olaraq üzv dövlətlərə müraciət edildi və onların razılığı istənildi. Qaydalara əsasən, BMT Baş Assambleyasının əksəriyyətinin dəstəyi olduqda müstəsna hal kimi müntəzəm keçirilən sessiyalarla yanaşı, xüsusi sessiyalar da keçirilə bilər. BMT tarixində çox az sayda xüsusi sessiya çağırılıb. COVID-19 ilə mübarizədə də məhz Azərbaycan Prezidenti tərəfindən BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü irəli sürülmüşdür. Bu təşəbbüs BMT-nin 130-dan çox üzv dövləti tərəfindən dəstəklənmişdir. Bu, beynəlxalq səviyyədə Azərbaycan Respublikasına olan etimadın, hörmətin növbəti bariz nümunəsidir. Hazırda BMT-nin müxtəlif strukturları tərəfindən xüsusi sessiyanın çağırılması ilə bağlı müvafiq prosedur addımlar atılır”, - deyə Hikmət Hacıyev vurğulayıb.

Prezidentin köməkçisi həmçinin qeyd edib ki, bu gün Ermənistan dünyadan yardım diləndiyi halda, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı qlobal təşəbbüsünə qarşı çıxır. Bu, bir daha Ermənistanın əsl mahiyyətini ortaya qoymuş oldu. Bütün dünya ölkələri koronavirusla bağlı həmrəylik nümayiş etdirir. Dünya ölkələri bəyan edir ki, bu, çox vacib və vaxtında irəli sürülən bir təşəbbüsdür. Lakin Ermənistan tərəfi bu təşəbbüsə qarşı çıxmaqla əsl mahiyyətini ortaya qoydu.




## *Yaqut QARAYEVA:* “Sərt karantin rejimi tətbiq olunmasaydı, yoluxma hallarının ikiqat artımını müşahidə edə bilərdik”

Hazırda tətbiq olunan sərt karantin rejimi öz nəticəsini verir. Belə ki, ölkəmizdə COVID-19-a yoluxma sayı stabilləşib.

AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

“Düzdür, gündəlik yoluxma sayı 500-dən çoxdur. Lakin yoluxma hallarının ikiqat artımı ola bilərdi ki, sərt karantin rejimi nəticəsində bu, baş vermir. Bu da bizə imkan verir ki, biz müalicə müəssisələrində çarpayı fondunu doğru istifadə edək və xəstələrə normal tibbi xidmət göstərə bilək. Bu, bizim üçün çox önəmlidir”, - deyə Y.Qarayeva qeyd edib.

TƏBİB-in şöbə müdiri şadlıq saraylarında xəstələrin yerləşdirilməsi ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib: “Hazırda heç bir halda koronaviruslu xəstə tibb müəssisəsindən kənarda müalicə olunmur. Sadəcə olaraq, Atletlər kəndi karantin müəssisəsi olaraq istifadə edilir. Orada bəzi xəstələrin qəbul olunması və müayinə nəticəsində çeşidlənməsi həyata keçirilir. Bundan başqa, xəstələrin səhiyyə müəssisələrindən kənarda müalicəsi aparılmır”.

## Laborator testlərin aparılması üçün yaxın günlərdə ölkəyə yeni avadanlıqlar gətiriləcək

Klinik simptomlu şəxsləri, yoluxanlarla təmasda olanları və xaricdən gələnləri test edirik. Hazırda bu testləri 23 laboratoriya aparır.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib.

Yaqut Qarayeva qeyd edib ki, laborator imkanların artırılması planlaşdırılır. Laborator testlərin aparılması üçün yaxın günlərdə ölkəyə yeni avadanlıqların gətirilməsi gözlənilir. Ümumi olaraq test saylarının artması müşahidə olunur.

## COVID-19 elə bir infeksiyadır ki, qısa zamanda xəstənin vəziyyəti dəyişə bilər

Bir çox vətəndaşımız özlərində COVID-19-un əlamətlərini hiss etsələr də, onu başqalarına bildirməkdən çəkinirlər. Onlar bunu müəyyən müddət gizlədir və özbaşına müalicə tədbirləri görüb nəticə gözləyirlər.

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi Aparatının rəhbəri Nadir Zeynalov Nazirlər Kabinetinin yanında Operativ Qərargahın iyunun 30-da keçirdiyi mətbuat konfransında bildirib.

O deyib: “COVID-19 elə bir infeksiyadır ki, qısa zaman ərzində xəstənin vəziyyəti dəyişə bilər. Əgər ağırlaşma hallarını az görmək istəyiriksə, infeksiyaya dair əlamətləri özündə hiss edənlər həkimə müraciət etməlidirlər. Onların belə hallarda poliklinikaya, sahə həkiminə müraciət etmələrini məsləhət görürəm. Lakin həmin şəxslərin özlərinin poliklinikaya getmələri məsləhət deyil, çünki onlar poliklinikada digər insanları yoluxdura bilərlər”.

## *Nadir ZEYNALOV:* “Ev şəraitində müalicə alan koronavirus xəstələrinin dərmanla təminatı məsələsi həll ediləcək”

Ev şəraitində müşahidə və müalicə ancaq simptomsuz, yəni əlaməti olmayan yoluxmuş şəxslər və COVID-19-un yüngül əlamətləri qeydə alınan, müvafiq olaraq toksik ağır təsirli dərmanlarla müalicəyə ehtiyacı olmayan şəxslər üçün nəzərdə tutulur. Simptomsuz xəstələrin müşahidəsi, yüngül əlamətləri olan xəstələrin isə immun sistemini tənzimləyən və gücləndirən dərmanlarla, əsasən vitaminlərlə təchiz olunması planlaşdırılır. Bu dərmanların poliklinikalar vasitəsilə qeydiyyata alınmış yoluxmuş şəxslərə və əlamətləri olan şəxslərə çatdırılması nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirdiyi mətbuat konfransında Səhiyyə Nazirliyi Aparatının rəhbəri Nadir Zeynalov məlumat verib.

O deyib ki, virusa yoluxmuş şəxslərin apteklərə getməsi yolverilməzdir. Ümumiyyətlə, koronavirusa yoluxmuş şəxslərin təcrid edilməsi, heç yerə çıxmaması tələb olunur. Ev şəraitində müalicə alan xəstələrin dərmanla təmin olunması məsələsi həll ediləcək.

# Artırılan cərimələr məsuliyyətsizliyin nəticəsidir

*Əvvəli 1-ci səh.*







Qurumun Baş direktoru Tedros Adhanom Gebreyesus deyib ki, bəzi ölkələr öz iqtisadiyyatlarını bərpa etmək və ictimai həyata qayıtmaq ərəfəsində yüksək yoluxma halları ilə üzləşiblər: “Əksər insanlarda virusa həssaslıq qalmaqdadır. Onun geriyə qayıtması üçün hələ də ehtimallar var. Acı reallıq ondan ibarətdir ki, vəziyyət hələ də tənzimlənməyib”.

### COVID-19 bəlasından birgə qurtuluş yolu

Azərbaycan hələ virusun ilk yayıldığı zamandan etibarən aparılan qabaqlayıcı tədbirlər sayəsində qlobal böhrandan minimum itkilərlə çıxmağı bacaran ölkələr siyahısında yer aldı. Hətta ölkəmizin bu mübarizə üsulu ÜST tərəfindən ölkələrə örnək göstərildi, nümunə çəkildi.

Azərbaycan öz daxilində pandemiya ilə savaşmaqla yanaşı, ona qarşı mübarizə aparmaq üçün 20-dən çox ölkəyə yardım əlini uzatdı, həmrəylik nümayiş etdirdi. Bir çox beynəlxalq təşkilatları videokonfrans formatında təşkil olunan toplantıda birləşdirərək COVID-19 bəlasından birgə qurtuluş yolları axtarmağın təşəbbüskarına çevrildi.

Ölkə daxilində isə bütün imkanlarını yenə də koronavirusla mübarizəyə yönəldib vətəndaşlarının sağlamlığını ön planda tutdu. Virusa yoluxan xəstələrin hamısının xəstəxana şəraitində müalicə olunması isə dövlətin onların hər birinə ən humanist yanaşmasının bariz nümunəsi oldu.

Tətbiq olunan karantin rejimləri dövründə (hazırda da) aztəminatlı ailələrə, yaşı 65-dən yuxarı kimsəsiz şəxslərə yardım edilməsi, sahibkarlara dəstək verilməsi, ümumiyyətlə, pandemiyanın insanların həyatına təsirini azaltmaq üçün atılan əhəmiyyətli addımlar hər bir vətəndaşın dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunmasından xəbər verdi. Elə bu zəruri addımlar koronavirusun ilkin dalğasını vətənimizdə az itki ilə ötüşdürdü.

Bu bir gerçəklikdir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər ölkəmizi böyük bir bəladan xilas etdi.

### Yumşaldılmanı koronavirusun dünyadan yox olması kimi anlayanlar...

Buna görə də həmin ərəfədə epidemiya sahəsində əldə olunan müsbət dinamika sərtləşdirməni yumşalma meyilləri ilə əvəzlədi.

Tədricən Azərbaycanda həyat normal məcraya istiqamətləndirildi. Amma koronavirusun peyvənd və ya müalicəsi tapılana qədər bütün dünyaya diktə etdiyi yeni tələblərlə həyatı davam etdirmək olar. Bu əsnada vətəndaşların sağlamlıqları, təhlükəsizlikləri bilavasitə onların məsuliyyətindən birbaşa asılı idi. İctimai yerlərdə məsafə saxlanmalı, qapalı yerlərdə maskadan istifadə edilməli, şəxsi gigiyenaya həmişəkindən daha diqqətli yanaşılmalı idi. Sadalanan bu üç qayda hələlik koronavirusa yoluxmamağın ən effektiv üsulu olduğu üçün tələblərə riayət etmək həyati əhəmiyyət daşıyırdı.

Amma gözlənilənin əksinə olaraq bir çox vətəndaşlar yumşaldılmanı koronavirusun dünyadan yox olması kimi anlayaraq, qoyulan qaydalara riayət etməyi bir kənara qoydular. Sosial məsafə saxlanılmadı, maskaya ehtiyac görülmədi və qısa zamanda bu məsuliyyətsizliyin acı reallığı ilə hər kəsi üz-üzə qoydu. Ölkəmizdə COVID-19-a yoluxma sürətli bir hal alaraq rəqəmləri 15 minin üzərinə daşıdı. Ölənlərin sayında da artım oldu. Əvvəlki mərhələdə az rast gəlinən neqativ hallar müşahidə edildi, yoluxanlar arasında gənclərin sayı çoxaldı, o cümlədən ağırlaşma halları olan xəstələrin sayı artdı. Buna görə də yenidən karantin rejiminin uzadılmasına, bəzi rayon və şəhərlərdə sərtləşdirmələrə qərar verildi.

### Davam edən qayda pozuntularının acı nəticəsi

Reallıqda yenə də məlum oldu ki, görülən tədbirlər də hələlik yoluxma sürətinin qarşısını ala bilməyib. Çünki ölkədə yaşanan çətin, böhranlı günlərdə belə tələb olunan qaydalar çərçivəsində yaşamaq istəməyən biganələr, eqoistlər, məsuliyyətsizlər var. Onlar özlərinin belə təhlükə altında olmalarının fərqinə varmadan millətin taleyi ilə oynayırlar. Pandemiyanı heçə sayaraq istirahət etməyə çalışırlar, qadağalara baxmayaraq rayonlarda dincəlmək arzusuna düşürlər, postlardan müxtəlif qanunsuz yollarla keçməyə cəhd göstərirlər.

Çoxları ictimai yerlərdə məsafə saxlamadılar, nəqliyyatda, qapalı yerlərdə maskadan istifadə etmədilər. Yas mərasimlərində iştirak etdilər, toy düzənlədilər, kafe açılışları təşkil etdilər və sair və ilaxır...

Təbii ki, yol verilən bütün bu qanunsuz davranışların, məsuliyyətsiz addımların qarşısı alınır, onlar müəyyən olunmuş qaydada cərimələnirdilər. Amma heyrətləndirici bir reallıq da ortada idi. Hələlik qaydalara uymaqla bağlı edilən sosial çağırışlar, tətbiq olunan cərimələr yenə də bəzilərinin məsuliyyətsizliyinin qarşısını ala, önünü kəsə bilmir. Qayda pozuntuları davam edir, paralel olaraq yoluxma sayını artırır.

Və artıq ölkəni məhvə sürükləyən bu cahil davranışlardan qurtulmaq üçün cərimələrin artırılması, SMS icazə sistemində bir çox icazələrin ləğv edilməsi məsələsini gündəmə gətirdi və təxirəsalınmadan tətbiqini labüd etdi.

Artıq sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti tərəfindən müəyyən edilən tələblərin pozulmasına görə, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə, fiziki şəxslər 100 manat məbləğində, vəzifəli şəxslər 200 manat məbləğində, hüquqi şəxslər 400 manat məbləğində cərimə ediləcəklər.

Bu xətanın qanun qüvvəyə mindiyi gündən 1 il ərzində təkrar törədilməsinə görə, fiziki şəxslərə 200, vəzifəli şəxslərə 400, hüquqi şəxslərə isə 800 manat məbləğində cərimə yazılacaq.

### İnsan yaşamını sual altında qoyan bu bəlaya biganə yanaşsaq...

Bəli, təəssüf ki, bütün dünyada olduğu kimi Azərbaycanda da vəziyyət ciddidir, təhlükə sovuşmayıb. Bunun üçün ölkəmizdə yoluxma ilə bağlı son statistikaya nəzər salmaq kifayətdir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Azərbaycanda koronavirusla bağlı iyunun 29-na olan statistik göstəricilərində qeyd olunub ki, ölkə ərazisində bu günə qədər 475 525 test aparılıb. Onlardan 16 968-nin cavabı pozitiv çıxıb. İndiyədək 206 nəfər COVID-19-dan dünyasını dəyişib, 9369 nəfər xəstəliyə qalib gəlib. Aktiv xəstə sayı 7393 nəfərdir. 213 nəfər reanimasiyada, 36 nəfər süni tənəffüs cihazındadır.

Bütün bu mənfi göstəriciləri müsbətə istiqamətləndirmək isə yenə də insanların öz əlindədir. Görülən tədbirlər, artırılan cərimələr yalnız təhlükəni dayandırmaq, sağlamlığımızı qorumaq üçündür. Çox sadə olan üç qaydaya əməl etsək, məsafə saxlasaq, maska taxsaq, şəxsi gigiyenaya fikir versək nə cərimələnərik, nə də həyatımız təhlükədə olar.

Amma yenə də dünyada insan yaşamını sual altında qoyan bu bəlaya biganə yanaşsaq, vətəndaş məsuliyyətini unutsaq nəinki artırılan cərimələr, tətbiq olunan Karantin rejimləri, ümumiyyətlə, heç bir qüvvə xalqımızı bu fəlakətdən qoruya bilməz.

Necə ki gec deyil, tutduğunuz bu yanlış yoldan geri dönün ki, biz də koronavirusla bağlı dünyanın yaşadığı acı ssenariləri yaşamayaq. Zülmətdən işığa yol alaq, irəli gedək, gələcəyə ayaq basaq...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

## Azərbaycanda koronavirusa daha 556 yoluxma faktı qeydə alınıb, 346 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 556 yoluxma faktı qeydə alınıb, 346 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 17 min 524 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 9715 nəfər müalicə olunaraq sağalıb, 213 nəfər vəfat edib. Aktiv xəstə sayı 7596 nəfərdir.

Ötən müddət ərzində 482 min 170 test aparılıb. Bugünkü test sayı isə 6645-dir.

## 8103 nömrəsinə əsassız müraciət edən 88 nəfərin kimliyi müəyyənləşdirilib

Azərbaycanda “Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi”nin 8103 nömrəsinə gün ərzində heç bir səbəb olmadan dəfələrlə əsassız, o cümlədən başqasının şəxsiyyət vəsiqəsinin seriya nömrəsindən istifadə etməklə müraciət edən şəxslərin kimliyi müəyyənləşdirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu üsuldan istifadə edərək karantin qaydalarını pozan, ümumilikdə, 88 nəfərin şəxsiyyəti aparılan araşdırmalarla müəyyən olunub. Polis idarə, şöbə və bölmələrinə dəvət olunan həmin şəxslərlə profilaktik söhbətlər aparılıb, onların izahatları alınaraq xəbərdarlıq edilib. Onların nəzərlərinə çatdırılıb ki, növbəti dəfə belə hallara yol verəcəkləri təqdirdə barələrində daha ciddi inzibati tədbirlər görüləcək.

DİN vətəndaşlarımızı bir daha 8103 nömrəsindən aidiyyəti üzrə istifadə etməyə çağırır, bu zaman sui-istifadə hallarına yol verməməyi tələb edir.

Nazirlik bildirir ki, İcazələrin Alınması və Monitorinqi Sisteminə daxil olan bütün müraciətlər ciddi və hərtərəfli araşdırılır.

Müxtəlif əsassız bəhanələrlə və ya başqasının şəxsiyyət vəsiqəsinin seriya nömrəsindən istifadə etməklə qanunsuz olaraq 8103 qısa nömrəsi vasitəsilə icazələr alaraq sanitariya-gigiyena və karantin rejiminin tələblərini pozan şəxslərin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

# Baş prokuror Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri ilə görüşüb



İyunun 30-da Baş prokuror Kamran Əliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Baş prokuror BQXK-nın zəngin tarix və ənənələrə malik olması, Komitə ilə ölkəmiz arasında inkişaf edən qarşılıqlı əlaqələr barədə söhbət açıb, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluqda aparılan genişmiqyaslı islahatlar nəticəsində struktur dəyişikliyi ilə əlaqədar yaranmış yeni idarələrin fəaliyyət istiqamətləri barədə məlumat verib.

Xanım Elena Aymone Sessera ikitərəfli münasibətlərə toxunaraq Azərbaycan ilə münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkmiş Azərbaycan vətəndaşlarına humanitar yardımın göstərilməsi, cəbhəboyu ərazilərdə yaşayan mülki şəxslərin təhlükəsizliyi, fiziki və psixoloji sağlamlıqları, itkin düşmüş şəxslərin taleləri ilə əlaqədar BQXK-nın Azərbaycandakı fəaliyyəti, həyata keçirdiyi layihələrdən və görülən mühüm işlərdən danışıb. O, həmçinin COVID-19 pandemiyası ilə əlaqədar keçirdikləri təlimlər barədə məlumat verərək, ikitərəfli münasibətlərin inkişafı naminə, habelə Azərbaycan Respublikasının hüquq mühafizə orqanları, o cümlədən prokurorluq orqanları ilə əməkdaşlıq istiqamətində münasibətlərin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumat verilib, bir sıra digər məsələlər müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb.

# Azərbaycan diplomatiyasının növbəti uğuru

*Əvvəli 1-ci səh.*



Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupunun 2020-ci il mayın 4-də keçirilmiş Zirvə görüşündə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Avropa İttifaqı və Afrika İttifaqı kimi beynəlxalq təşkilatların nümayəndələri də iştirak etmiş, tədbirdə pandemiyaya qarşı mübarizədə dünya ölkələri arasında əməkdaşlıq məsələsi müzakirə olunmuşdur. Prezident İlham Əliyev bu mötəbər tədbirdə çıxış edərək, pandemiya ilə mübarizədə qlobal həmrəyliyin yaradılması üçün BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyanın keçirilməsi təklifini irəli sürmüşdür.

Bu təklifi Qoşulmama Hərəkatının üzv dövlətləri yekdilliklə dəstəklədikdən sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşkilatın Baş katibi Antonio Quterreşə müraciət etmişdir. BMT-nin Baş katibi mayın 28-də Baş Assambleyanın "Prosedur Qaydaları"na uyğun olaraq, bütün üzv ölkələrə müraciət edib 30 gün müddətində, yəni iyunun 27-nə qədər təşəbbüsə münasibət bildirmələrini xahiş etmişdir. Qaydalara görə, BMT-yə üzv ölkələrin 97-si təşəbbüsü dəstəklədiyi halda xüsusi sessiya təşkil olunmalıdır. Hələ göstərilən müddətin bitməsinə qədər 130-dək dövlətin Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləməsi beynəlxalq birliyin Azərbaycana böyük etimad və inam göstərməsindən irəli gəlir.

Prezident İlham Əliyevin koronavirus pandemiyasına qarşı apardığı siyasət yalnız ölkəmizin deyil, həm də qlobal səviyyədə beynəlxalq ictimaiyyətin maraqlarını ifadə edir. Fikrimizcə, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi COVID-19-la mübarizədə beynəlxalq həmrəylik yaradaraq, pandemiyaya qarşı sistemli və mütəşəkkil tədbirlərin görülməsinə əhəmiyyətli təsir göstərəcək. Prezident İlham Əliyevin pandemiyaya qarşı mübarizə sahəsində atdığı addımların əhəmiyyətini və dünya dövlətləri arasında həmrəyliyin yaranması istiqamətindəki fəaliyyətinin müsbət nəticələrini beynəlxalq ictimaiyyət öz həyatında hiss edəcəkdir.

Azərbaycan dövləti koronavirus pandemiyasına qarşı mübarizəyə qlobal təhlükəsizlik məsələsi kimi yanaşır və bu məqsədlə praktiki tədbirlər görür. Hazırda COVID-19 insanların sağlamlığına və həyatına ciddi təhlükə olmaqla yanaşı, dünya ölkələri üçün sosial-iqtisadi və humanitar problemlər yaratmışdır. Ölkəmiz pandemiyaya qarşı mübarizədə qlobal həmrəylik nümayiş etdirərək, Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırmış, 30-dan çox dövlətə humanitar yardım göstərmişdir.

Dünyanın koronavirusla üzləşdiyi bir vaxtda Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər sübut edir ki, Azərbaycan yalnız özünün deyil, həm də dünya əhalisinin sağlamlığı ilə bağlı təhlükəsizliyin təmin olunmasına çalışır. Ölkəmiz həmişə beynəlxalq əməkdaşlığın möhkəmlənməsində, mədəniyyətlərarası dialoqun, qlobal xarakter daşıyan tədbirlərin keçirilməsində yaxından iştirak etmiş, pandemiya ilə mübarizədə də beynəlxalq həmrəyliyin vacib olmasını nəzərə alıb bu istiqamətdə fəal siyasət aparır.

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***

# "Sülhlə işğala qarşı" mövzusunda videokonfrans olub

İyunun 29-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə "Sülhlə işğala qarşı" mövzusunda videokonfransda iştirak edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, videokonfrans Fələstin Dövləti Baş Qazının Divanının təşkilatçılığı, Fələstinin Baş qazısı Mahmud Sidqi Əl-Həbbaşın sədrliyi ilə keçirilib.

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən Türkiyə, İndoneziya, Misir, İraq, Sudan, Malayziya, həmçinin Rusiya və digər ölkələrin nazirlərinin, tanınmış din xadimlərinin və nüfuzlu ictimaiyyət nümayəndələrinin iştirak etdikləri videokonfransda Fələstin xalqının hüquqlarının müdafiəsi, BMT müstəvisində Fələstin dövlətinə hüquqi, humanitar yardımın daha da artırılmasına dair məsələlər, habelə Qüdsün taleyinə dair müzakirələr aparılıb.

Videokonfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqının və dövlətinin hər zaman Fələstin xalqının və dövlətinin yanında olduğunu, bu istiqamətdə önəmli əməli addımlar atdığını vurğulayıb. Prezident İlham Əliyevin bu məsələyə xüsusi diqqət nümayiş etdirdiyini videokonfrans iştirakçılarının nəzərinə çatdıran Allahşükür Paşazadə Azərbaycanın bütün sahələrdə Fələstinin dövlətçilik, sülh, sabitlik və davamlı inkişafla bağlı səylərini tam dəstəklədiyini xatırladıb.

Səmavi dinlər üçün müqəddəs sayılan və ilk qibləgahımız olan Qüds ətrafında baş verənlərin təbii ki, hər bir mömin, inanclı insan üçün həssasiyyət kəsb etdiyini bildirən QMİ sədri Qüdsün Uca Yaradanın hökmünə və iradəsinə uyğun, müsəlmanlar və əhli-Kitab üçün özəl məqam olaraq qorunub saxlanılmasının, sülh, barış məkanı olmasının zəruriliyini ifadə edib. O bildirib ki, Ulu Yaradanın müqəddəs qərar verdiyi, müsəlman və qeyri-müsəlmanlar üçün müqəddəs sayılan yerlərə sahib olan Qüds bütün bəşərə məxsus sülh və dialoq məkanı olmalıdır.




Şeyxülislam Allahşükür Paşazadə beynəlxalq hüququn işləməməsinin, beynəlxalq ictimaiyyətin mövqeyinin nəzərə alınmamasının təhlükəli meyil olduğunu xüsusi vurğulayıb. O, birmənalı şəkildə bildirib ki, Qüdsün İsrailin bölünməz paytaxtı elan edilməsi haqqında təktərəfli qaydada verilmiş qərar və ümumən, siyasi məqsəd, niyyətlər naminə bu şəhərlə bağlı qərarın verilməsi qeyri-məqbuldur. Bu, nəinki müsəlmanların, qeyri-müsəlmanların da hüquqlarının pozulması deməkdir.

QMİ sədri çıxışında qeyd edib ki, illərdir separatçılıqdan əziyyət çəkən, əzəli torpaqları, beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edən, Xocalı şəhərində törədilmiş soyqırımı da ikili yanaşmalar səbəbindən zamanında hüquqi-siyasi qiymətini almamış cinayətlər sırasında yer alan Azərbaycan Fələstinlə bağlı ədalətsiz qərarlara qarşıdır.

Fələstin probleminin sülh yolu ilə ədalətli həllinin zəruriliyini vurğulayan A.Paşazadə Yaxın Şərqin bu həssas bölgəsində sabitliyin bərqərar olması üçün BMT-nin müvafiq qətnamələrinə uyğun ədalətli, davamlı və sülh yolu ilə həllinin vacibliyini xüsusi qeyd edib.

# Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin videokonfrans formatında görüşü olub

İyunun 30-da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi və iştirakı ilə videokonfrans formatında görüşü olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, bir saat davam edən videokonfransda tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini müzakirə ediblər.

Nazir Elmar Məmmədyarov Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən infrastruktur dəyişiklikləri məsələsini qaldırıb.

Həmsədrlər son zamanlar aqressiv ritorikanın artdığını qeyd ediblər. Elmar Məmmədyarov Ermənistanın təxribat xarakterli hərəkətlərinin ritorikanın alovlanmasına gətirdiyini vurğulayıb.

Tərəflər qarşıdan gələn ay ərzində Minsk qrupunun həmsədrlərin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti videokonfrans formatında görüşünün təşkilinə razılaşıblar. Həmçinin həmsədrlər nazirlərin birbaşa təmaslarının imkan olan ilk fürsətdə təşkili imkanlarını araşdıracaqlarını qeyd ediblər.

# ADA Universitetində məzunların təbrik edilməsi onlayn formatda keçirilib

İyunun 30-da ADA Universitetinin 465 tələbəsi və ADA Məktəbinin 36 şagirdi məzun olaraq bu ali təhsil müəssisəsinin elmi-pedaqoji kollektivi tərəfindən təbrik edilib.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, yerli tələbələrlə yanaşı, Maldiv Respublikası, Meksika, Moldova, Nigeriya, Vyetnam, Rusiya, Türkmənistan, Özbəkistan, Gürcüstan, Yəmən və İran da daxil olmaqla 11 ölkəni təmsil edən əcnəbi tələbələr məzun olublar.

Universitetin kampusundan birbaşa yayımlanan tədbirdə dekanların, xarici müəllimlərin, tələbələrin və ADA əməkdaşlarının da təbrik videoları yayımlanıb, ali təhsil müəssisəsində tələbə həyatını əks etdirən videogörüntülər nümayiş etdirilib. Yayım zamanı, tələbələr universitetin "Facebook" səhifəsində keçirilən və ADA-da ən xoş xatirələri ilə bağlı olan fotokampaniyada iştirak ediblər. Bir neçə tələbə ilə canlı telefon bağlantısı yaradılıb.

Rektor Hafiz Paşayev 2020-ci il məzunlarını təbrik edərək, onları gələcəkdə də universitetin fəaliyyətində yaxından iştirak etməyə səsləyib. Universitetin kampusunda tələbələrlə mütəmadi görüşlərini məmnunluqla xatırlayan rektor pandemiya dövründə təhsillərini uğurla davam etdirən məzunlara, habelə təlim-tədrisin davamlılığını təmin edən və fədakarlıq göstərən professor-müəllim heyətinə minnətdarlığını bildirib. Ev şəraitində təhsil alan tələbələrə dəstəyini əsirgəməyən valideynlərə də xüsusi təşəkkür edən Hafiz Paşayev övladlarının məzun olması münasibətilə onları təbrik edib.

"Bilik və bacarıq qazanmaq mümkündür, lakin öz prinsipləri əsasında həyatını davam etdirməyən şəxslərin gələcəkdə uğur qazanması mümkünsüzdür", - deyən Hafiz Paşayev məzunlara təhsil müddəti ərzində aşılanan prinsiplərə sadiq qalmalarını, harada və hansı sahədə fəaliyyət göstərmələrindən asılı olmayaraq, onları vətənpərvər və müstəqil Azərbaycanın gələcəyinin təminatçıları sırasında görmək istədiyini bildirib.

Tədris işləri üzrə prorektor Vəfa Kazdal ADA Universitetinin hər zaman məzunları ilə qürur duyduğunu vurğulayıb. ADA Məktəbinin məzunlarını da təbrik edən prorektor bu ilin onlar üçün xüsusilə çətin keçdiyini, yeni təhsil mühitinə, onlayn təhsilə keçid etmələrinə baxmayaraq, öz missiyalarını uğurla tamamladıqlarını qeyd edib.

ADA Universitetinin tələbələri Günay Bədəlova və Ceyran Cəfərova musiqi ifaları ilə çıxış ediblər.

Qeyd edək ki, ADA Universiteti tədris ili ərzində Rusiyanın MGIMO, ABŞ-ın Corc Vaşinqton, Fransanın CEFAM universitetləri ilə ikili diplom proqramlarına dair tərəfdaşlıq razılaşmaları imzalayıb. Almaniyanın Halle-Vittenberq Universiteti ilə birgə doktorantura proqramı, İtaliyanın Luiss Universiteti ilə tələbə mübadilə proqramı təsis edilib. Bununla yanaşı, ADA Universiteti müasir təhsilin tələblərinə cavab vermək məqsədilə Təlim və tədrisin təşkili və metodikası üzrə magistr proqramını təqdim edib.

# Multikultural və dinlərarası dialoqda dini kimlik




Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar fakültəsinin birgə təşkilatçılığı ilə "Multikultural və dinlərarası dialoqda dini kimlik: Azərbaycan və Belçika modeli" mövzusunda videokonfrans keçirilib.

Açılışda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çağdaş dünyamızda dini dözümlülüyün mövcudluğunun çox vacib amil olduğunu vurğulayaraq, bu cür görüşlərin təşkilinin vacibliyindən söz açıb. O, Azərbaycanda birgəyaşayış modelinin beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrdən ətraflı danışıb.

Belçika Krallığında fəaliyyət göstərən Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar fakültəsinin dekanı professor Yohan Temmerman isə tədbirin mövcud əlaqələrin genişləndirilməsində və qarşılıqlı münasibətlərin formalaşmasında əhəmiyyətindən söz açıb.

Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar fakültəsinin eksperti və məruzəçisi professor L.J.Parlevliet dini təhsilin əhəmiyyəti mövzusunda çıxış edib. Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Azərbaycan tolerantlığının sosial-tarixi və teoloji əsaslarından bəhs edən məruzə ilə çıxış edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxışında Azərbaycanda həyata keçirilən multikulturalizm siyasətindən bəhs edərək, mədəniyyətlərarası və dinlərarası dialoq platformasının əhəmiyyətini vurğulayıb. Videokonfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev, Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov, AİI-nin Xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov məruzələrlə çıxış ediblər.

Konfransda Azərbaycan və Belçika modelləri başda olmaqla, tolerantlıq və multikulturalizmin müxtəlif modellərinin dərindən araşdırılması, bəşəri dəyərlər sisteminin daha da zənginləşdirilməsinə töhfə verəcək təcrübələrin sistemləşdirilməsi məqsədilə işçi platformanın yaradılması təklif edilib. Qeyd olunan istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsi ilə bağlı konkret mexanizmin akademik səviyyədə işlənilməsinin zəruriliyi vurğulanıb, irqçilik, radikalizm, ksenofobiya, islamofobiya, diskriminasiya və dini dözümsüzlük əleyhinə, həmçinin mədəniyyətlərarası, dinlərarası dialoqun inkişaf etdirilməsinə dair müştərək seminar, "dəyimi masa" və konfransların təşkili imkanları müzakirə olunub. Sözügedən məsələlərin araşdırılması məqsədilə hər iki ali təhsil müəssisəsinin müvafiq sahə üzrə alim və mütəxəssislərindən ibarət işçi qrupunun yaradılması prioritet məsələ kimi razılaşdırılıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Harvardda təkmilləşən alim ömrü

## Dünyanın ən nüfuzlu universitetində təhsil alan iqtisadçı Aqşin ƏLİYEV: "Pandemiya və postpandemiya dönəmində özünü inkişaf etdirməyin müstəsna əhəmiyyəti var"

Qədim romalılar hesab edirdilər ki, insan həyatını şəkilləndirən iki zər var. Birinci zər doğuşdan atılır, ikincisi isə insanın mübarizəsi, təhsili və özünü inkişaf etdirməsinə görə şəkillənir. Türkiyəli yazar Mümin Sekman isə bura bir zər də əlavə edir. Onun fikrincə, insanın uğur formulu üç şeydən formalaşır - doğuşdan gələn, sonradan inkişaf etdirilən və uğur imkanlarını istifadə etmək bacarığı. Yəni ilk bacarıq anadagəlmədir, ikincisi təhsil, təlim və ətraf mühitlə qazanılır. Üçüncüsü isə özünü inkişaf etdirməklə, yeni bilgilər qazanmaqla və öyrəndiklərini gündəlik həyatında tətbiq etməklə əldə olunur...



Onun da taleyi və karyerası bu üç zərin toplamı əsasında qurulub. Hesab edir ki, həyatda nəyəsə nail olmaq üçün əsas şərt öz uğur formulunu tapmaqdır. Bu formulun içində isə mütləq çox çalışmaq, öz üzərində işləmək, həyatda qarşına qoyduğun məqsədə doğru inamla irəliləmək ilk sıralarda durur. İqtisad üzrə fəlsəfə dokroru, gənc alim Aqşin Əliyev özünün "Uğur formulu"ndan danışır.

Aqşin Əliyev 1988-ci ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib. 132 saylı orta məktəbdə oxuyub. 2008-ci ildə Bakı Dövlət Universitetini iqtisadi nəzəriyyə ixtisası üzrə bitirib. 2009-2011-ci illərdə İngiltərənin Gloucestershire Universitetində Beynəlxalq Biznes ixtisası üzrə magistratura təhsili alıb. 2016-cı ildə "Ümumdünya Ticarət Təşkilatının Azərbaycanın kənd təsərrüfatının iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi" mövzusunda doktorantura işini müdafiə edərək iqtisad üzrə fəlsəfə dokroru elmi dərəcəsinə yiyələnib. Beləliklə, 28 yaşında gənc alim adını qazanıb.

Hazırda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçisidir. İndiyədək 10-dan çox elmi konfransın və 15-ə yaxın təlim, seminar və layihələrin iştirakçısı olub, sertifikat və diplomla təltif edilib. 2018-ci ildə BMT Bakı Ofisi və İqtisadiyyat Nazirliyi tərəfindən təşkil olunan II Respublika İnnovasiya Müsabiqəsində "Sahibkarlar üçün elektron məlumat portalı və mobil tətbiq" adlı layihəsi üzrə mükafata layiq görülüb. Eyni zamanda həmin il UNEC Tədqiqat Fondu tərəfindən keçirilən "Helios" qrant müsabiqəsinin qalibi olub. Azərbaycan, ingilis və rus dillərində 15-dən çox elmi məqalənin müəllifidir, tədqiqat yazıları yerli və beynəlxalq elmi jurnallarda dərc olunub. Hazırda isə Harvard Universitetinin "Qabaqcıl İqtisadi İnkişaf" proqramı üzrə ixtisasartırma təhsili alır.

Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Corc Bernard Şou deyirdi ki, bu dünyada uğuru yalnız bunun üçün lazım olan şəraiti axtaran tapır; tapmasa, bu şəraiti o özü yaradır. Aqşin Əliyev o şəraiti İngiltərədə təhsil aldığı zaman tapıb. Özünün təbirincə desək, məktəb vaxtı əlaçı şagirdlərdən olmayıb. Ona görə ağlına da gəlməzdi ki, nə vaxtsa Harvard Universitetində təhsil alacaq. Lakin İngiltərəyə gedəndən, o ab-havanı görəndən sonra təhsilin insan həyatında nə qədər önəmli olduğunu anlayıb. Öz üzərində çalışmağa, biliyini artırmağa səy göstərib.

Aqşin Əliyevin babası və nənəsi pedaqoq, atası iqtisadçı, anası elmi işçidir. Riyaziyyata, rəqəmlərə, elmə olan maraq ona elə uşaqlıqdan ailəsindən keçib. Özü də 23 yaşından elmi-pedaqoji sahədə çalışır. "Odlar Yurdu" Universitetində iqtisadiyyat, makroiqtisadiyyat, vergi siyasətini tədris edir. Eyni zamanda Dövlət Vergi Xidmətinin tədris mərkəzində vergi əməkdaşlarına da ixtisasartırma sahəsində dərs keçir. "İlk dəfə 23 yaşımda müəllim kimi auditoriyaya daxil olmuşam. Elə bilmişdilər ki, tələbə yoldaşlarından biriyəm", - deyə xatırlayır Aqşin Əliyev. Deyir ki, müəllimlik olduqca maraqlı peşədir. Tədris metodologiyasında isə nəzəriyyə ilə yanaşı, praktikanı da ona uyğunlaşdırmağa çalışır.

Gənc iqtisadçı hesab edir ki, ölkəmizdə savadlı, bacarıqlı, dünyagörüşlü gənclər çoxdur. Azərbaycanda gənclər qarşısında heç bir bürokratik əngəl yoxdur. Savadlı, bilikli, xaricdə təhsil almış, dünyagörüşlü gənclər irəli çəkilir. Elə ona görə də hazırda gənclər arasında rəqabət artıb. Aqşin Əliyev deyir:

- Son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Həmin illərdə xaricdə təhsil almış gənclərdən biri kimi qeyd edə bilərəm ki, bu dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində ölkəmizdə bir sıra mühüm nəticələr əldə olunub. Təsadüfi deyildir ki, 2020-Gələcəyə Baxış İnkişaf Konsepsiyasında da bu kimi məsələlər - insan kapitalının inkişafı, iqtisadi strukturun təkmilləşməsi, sosial-rifahın gücləndirilməsi yer alır. Məhz bu siyasətin nəticəsidir ki, mövcud pandemiya vəziyyəti ilə əlaqədar ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı təsdiq edilib.

Tədbirlər Planı 3 istiqaməti - iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyi kimi sahələri əhatə edir. Pandemiya və postpandemiya dövründə ölkə iqtisadiyyatının vəziyyətini təhlil etdikdə demək olar ki, Orta Şərq və Mərkəzi Asiyanın neft-qaz ixrac edən 11 ölkəsinin içərisində Azərbaycan iqtisadiyyatı pandemiyadan ən az zərər çəkən ölkələr arasında ilk üçlükdə yer alır. Hazırda ölkə Prezidentinin rəhbərliyi ilə hökumətin effektiv antiböhran tədbirləri hesabına iqtisadi tənəzzülün qarşısı daha səmərəli alınır. Beynəlxalq Valyuta Fondunun postsovet məkanında pandemiyadan əvvəl və sonrakı iqtisadi artımla bağlı verdiyi proqnozlarda ən az fərq Azərbaycanda qeydə alınıb. Bu o deməkdir ki, pandemiyanın təsirləri digər ölkələrlə müqayisədə bizim iqtisadiyyata daha az təsir edib. Eyni zamanda beynəlxalq reytinq agentliyi "Moody`s" 2021-ci il üçün proqnozlarında Azərbaycanın dövlət büdcəsində profisit yaranacağını qeyd edib. Təbii ki, bunun təməlində ölkə rəhbərliyi tərəfindən həyata keçirilən dövlət büdcəsi xərclərinin idarə olunmasındakı yeni yanaşmaların tətbiqi, fiskal idarəetmə və inzibatçılıq dayanır. Bundan başqa, 2020-ci ildə xüsusilə neft hasilatçıları və ixracatçıları ölkələrinin büdcələrinə yenidən baxmaq və optimallaşdırma siyasəti həyata keçirirlər. Buna görə də hazırkı dövrdə kəsirlərin olması proqnoz kimi gözlənilir. Nəticə olaraq qeyd etmək olar ki, indiki mərhələdə pandemiyanın iqtisadiyyata təsirinə qarşı antiböhran tədbirləri davam etdirilir, sabitlik qorunur və böhranın dərinləşməsinin qarşısı alınır. Növbəti mərhələdə isə iqtisadiyyatın bərpası prosesi başlanacaq ki, bu da sahibkarlığa dəstək, yüngül vergi yükünün tətbiqi və ucuz maliyyə imkanları kimi məsələləri əhatə edə bilər.

A.Əliyevin sözlərinə görə, müvəffəqiyyət qazanmaq üçün daim öz üzərində işləmək və təkmilləşmək lazımdır. Mütəxəssislər qeyd edirlər ki, iş həyatına başlamazdan əvvəl əldə olunan təhsil karyeranın ilk 3 ilini əhatə edir. Növbəti illərdə isə öz həmkarlarından fərqlənmək və əmək bazarında rəqabətcil olmaq üçün özünüinkişaf və özünütəkmilləşmə mütəmadi olmalıdır:

- Təhsil aldığım Harvard Universiteti dünyanın birnömrəli ali təhsil ocağıdır. Buranı dünyanın digər ali məktəblərindən fərqli edən məqamlar çoxdur. Fikrimcə, fərqli düşüncə tərzi, təhsil metodologiyası və müxtəlif ölkələrdən olan dövlət qurumlarının nümayəndələri və mütəxəssisləri ilə eyni auditoriyanı bölüşmək kimi faktorlar Harvard Universiteti seçimimdə əsas məqam oldu. "Qabaqcıl İqtisadi İnkişaf" proqramı iqtisadi artım və onun idarəedilməsi üzrə bilik və bacarıqlara yiyələnmək üçün ən yaxşı seçimdir. Xüsusilə də pandemiya və postpandemiya dönəmində iqtisadi artımı dəstəkləyən strategiyaların işlənib hazırlanması, struktur qərarlar qəbul etmək və idarəetmə bacarıqlarının inkişaf etdirilməsində "Qabaqcıl İqtisadi İnkişaf" ixtisasartırma kursunun müstəsna əhəmiyyəti var. Qrup yoldaşlarım arasında Ukrayna Maliyyə nazirinin müavini, Qazaxıstan Dövlət Sosial Təminat Fondunun direktoru, deputatlar, professorlar var. Pandemiya ilə əlaqədar olaraq dərslər onlayn keçirilir. Keçilən dərslərə uyğun olaraq hər həftə imtahan veririk. Avqustda diplomlarımız təqdim edilməlidir.

Aqşin Əliyev hesab edir ki, hər kəs öz uğurunun müəllifi olmalıdır. Uğur formulunun düsturu isə sadədir - hədəfə çatmaq üçün daim öz üzərində çalışmaq. Bəli, insan, ilk növbədə, həyatdakı hədəfini müəyyənləşdirməlidir. Özünü hansı sahədə görürsə, məhz ora can atmalı, daim üzərində çalışmalı, biliklərini artırmalıdır. Nəzəri biliklərlə yanaşı, iş sahəsində təcrübə toplamalıdır. Düşünmək olmaz ki, bir addım öndəyəm, vəssalam, dayanım. Əksinə, daim irəli can atmaq, özünü inkişaf etdirmək gərəkdir. Məhz bu zaman gənclər cəmiyyətə, dövlətə, xalqa faydalı ola bilərlər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycan hökuməti pandemiyanın mənfi təsirlərini minimumlaşdırmağa çalışır

## Sahibkarlığın güzəştli maliyyələşdirilməsində yeni mexanizmlər və Elektron Kredit Platforması təqdim olunub



İyunun 30-da Azərbaycan iqtisadiyyatında yaranmış yeni çağırışlar, sahibkarlığa yeni dəstək mexanizmləri və sahibkarların bu dəstək üçün onlayn rejimdə müraciət etməsi üçün yaradılmış Elektron Kredit Platformasının təqdimatına həsr edilmiş brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat nümayəndələrinin iştirakı ilə keçirilmiş brifinqdə İqtisadiyyat naziri Mikayıl Cabbarov dünya enerji və fond bazarlarında durğunluq, koronavirus pandemiyası səbəbindən tətbiq olunan məhdudiyyətlərin və yaranmış yeni çağırışların milli iqtisadiyyata təsirləri barədə danışıb. Qeyd edib ki, pandemiyanın mənfi təsirləri və neftin qiymətinin qeyri-sabitliyi nəticəsində iqtisadi fəallıq azalıb, iqtisadi tarazlıq pozulub, tətbiq edilmiş məhdudiyyətlər istehsal-emal-istehlak zəncirində qırılmalara səbəb olub. Bununla belə, iqtisadiyyatda müşahidə olunan durğunluğa baxmayaraq, milli iqtisadiyyatı tənəzzülə apara biləcək vəziyyət yaranmayıb. Bunun əsas səbəbi son illər ölkədə aparılan ardıcıl islahatlar, biznes mühitinin yaxşılaşdırılması və iqtisadiyyatın şəffaflaşdırılması tədbirləridir. Dövlət başçısı İlham Əliyevin təşəbbüsü və tapşırıqları əsasında hökumət milli iqtisadiyyata zərərləri minimallaşdırmağa çalışır.

Nazir diqqətə çatdırıb ki, iqtisadiyyata geniş dəstək paketini əhatə edən proqramlar təxirəsalınmaz maliyyə dəstəyinin həyata keçirilməsini, ortamüddətli dövr üçün biznesin fəaliyyəti ilə bağlı requlyativ yumşaldılmaları, biznes və investisiya mühitinin cəlbediciliyinin daha da artırılmasını nəzərdə tutur. O, 129 mindən çox sahibkara maliyyə dəstəyi göstərildiyini, bu proqramların işçi heyətlə birlikdə 310 mindən artıq vətəndaşı əhatə etdiyini bildirib. Aktiv vergiödəyicilərinin əksəriyyəti dövlətdən dəstək alıb və indiyədək 155 milyon manatdan çox maliyyə vəsaiti sahibkarların bank hesablarına köçürülüb.

Biznesə vergi güzəştləri paketi barədə məlumat verən İqtisadiyyat naziri qeyd edib ki, qəbul edilmiş vergi və sosial güzəştlər paketinin ümumi maliyyə dəyəri 130 milyon manatdır. Güzəştlər pandemiyanın təsirinə məruz qalan mikro, kiçik və orta sahibkarlıq subyektlərini, bəzi dəyişikliklər isə bütövlükdə hər bir vergiödəyicisini əhatə edir. Bu güzəştlər paketi ortamüddətli dövr üçün sahibkarların vergi və sosial yükünün azaldılmasına səbəb olacaq, onlara öz gəlirlərini bərpa etməyə və biznesini inkişaf etdirməyə, bütünlükdə, özəl sektorun genişlənməsinə zəmin yaradacaq.

M.Cabbarov sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, pandemiyadan zərərçəkən sahələrə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə sahibkarlığın maliyyələşdirmə alətlərinin genişləndirildiyini diqqətə çatdırıb. Belə ki, sahibkarlar üçün dövlət zəmanəti olmayan 1 milyard manat həcmində mövcud kredit portfelinə dəstək, eləcə də 500 milyon manat həcmində yeni kreditlərin 60 faizinə dövlət zəmanəti verilməsini və faizlərin subsidiyalaşdırılmasını ehtiva edən 2 yeni mühüm proqramın həyata keçirilməsinə başlanılır.

"Yeni mexanizmlər biznes krediti vəsaitinin alınması prosedurlarının asanlaşdırılması və inzibatçılığın sadələşdirilməsini də nəzərdə tutur. Dövlət zəmanətli kreditləşdirmənin vasitəçisi kimi İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu çıxış edir. Sahibkarların dövlət zəmanətli krediti asan əldə etməsi üçün Elektron Kredit Platforması yaradılıb (www.e-edf.gov.az). Belə ki, biznes krediti almaq istəyən sahibkar onlayn rejimdə bu platforma üzərindən müraciət edəcək. Bildirilib ki, müvəkkil kredit təşkilatlarının iştirakı ilə elektron platforma üzərindən dövlət dəstəyinin həyata keçirilməsi mexanizmi MDB-də ilk dəfə Azərbaycanda tətbiq olunur. Elektron Kredit Platforması sahibkara şəffaf, çevik, məmur müdaxiləsindən kənar, sağlam rəqabət mühitində kredit almaq imkanı yaradır. Eyni zamanda kredit üçün müraciət sistemi sahibkar tərəfindən izlənə bilən rəqəmsal həllə söykənir. Elektron Kredit Platforması artıq sahibkarların istifadəsinə verilib", - deyə o qeyd edib.

Ortamüddətli dövrdə inkişaf trendlərinə toxunan M.Cabbarov qlobal risklərin mövcudluğu şəraitində iqtisadiyyatın artım sürətini saxlamaq üçün yeni yolların tapılmasının vacibliyini bildirib, şaxələndirilmiş qeyri-neft sektorunun formalaşdırılmasının, ixracyönümlü iqtisadi artım modelinin uzunmüddətli dövrdə inkişafın əsas strateji xətti olacağını diqqətə çatdırıb. Bildirib ki, qeyri-neft sektorunun inkişafı, xarici faktorlardan asılı olmayan daxili istehsal zəncirinin tamamlanması ilə bağlı yeni yanaşmalar tətbiq ediləcək.

İqtisadi inkişaf tempini yenidən bərpa etmək üçün qeyri-neft sektoru sahələrinə, xüsusilə emal sənayesinə birbaşa xarici investisiyaların cəlb edilməsinin əhəmiyyətini vurğulayan nazir sənaye zonalarının və aqroparkların inkişafına diqqət yetiriləcəyini qeyd edib. Bildirilib ki, hazırda sənaye zonalarında 150-200 milyon dollarlıq yeni layihələrin həyata keçirilməsi imkanlarına baxılır. Layihələr üzrə danışıqlar yekunlaşmaq üzrədir və artıq bir sıra layihələr bu il Sumqayıt Kimya Sənaye Parkında fəaliyyətə başlaya bilər.

M.Cabbarov, həmçinin yeni investisiya və özəlləşdirmə strategiyasının tətbiq olunması, dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasının, səmərə gətirməyən sahələrə özəl sektorun cəlb edilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, bununla yanaşı, biznesə dəstək alətləri artacaq, iqtisadi idarəetmənin keyfiyyəti və səmərəliliyi yüksəldiləcək.

Vurğulanıb ki, hazırda bir çox transmilli şirkətlər fəaliyyətlərinin şaxələndirilməsi çərçivəsində bizneslərini vahid məkanlardan çıxardaraq müxtəlif ölkələrdə yerləşdirilməsini həyata keçirirlər. Bu, Azərbaycan kimi ölkələr üçün əlverişli imkandır və ölkəmiz yaranmış bu fürsətlərdən yararlanmaq niyyətindədir. Mövcud siyasi-iqtisadi və makroiqtisadi sabitlik, inkişaf etmiş nəqliyyat dəhlizləri nöqteyi-nəzərdən Azərbaycan cəlbedici məkan olaraq görünür və regionda mövcud olan rəqabətə baxmayaraq, ölkəmiz belə sərmayələri cəlb etməyə çalışacaq.

Nazir ölkəmizin tranzit potensialının daha dolğun reallaşmasına yönələn layihələrin həyata keçiriləcəyini, bu məqsədlə infrastrukturun genişləndirilməsinə sərmayələrin artacağını qeyd edib. Diqqətə çatdırılıb ki, bununla yanaşı, xarici investisiya fondlarının Azərbaycana marağı müşahidə olunur. Hazırda bu istiqamətdə xarici kapital mənbələri hesabına fəaliyyət göstərən fondların təsis edilməsi istiqamətində danışıqlar aparılır. Yeni iqtisadi şərait bir sıra fəaliyyət sahələrinin əhəmiyyətini önə çəkir. Bu, xüsusilə rəqəmsallaşmanın, innovasiya ekosisteminin inkişaf etdirilməsidir.

Azərbaycanın 4-cü Sənaye İnqilabının çağırışlarını qəbul etdiyini bildirən M.Cabbarov ölkəmizin texnoloji sıçrayış və innovativ həllərlə regionun rəqəmsal mərkəzinə çevrilməsi imkanlarının böyük olduğunu, bu sahədə regional mərkəzin təşkil edilməsini və rəqəmsal iqtisadiyyatın inkişafına nail olmağı hədəflədiyini deyib.

"Hazırkı şəraitə gəlincə isə, istər cəmiyyət, istər sahibkarlar yaranmış yeni tələblərə uyğunlaşmalıdır. Pandemiyanın nə zaman bitəcəyi məlum deyil, ona görə də sahibkarlar yeni şərtlər, sanitar-karantin və sosial-davranış qaydaları əsasında işləməyə öyrənməlidir. Ticarət və xidmət obyektləri yeni qaydalara nə qədər tez vərdiş etsələr, bu, onların biznesləri üçün daha vacibdir. Unutmamalıyıq ki, biz hamımız bir məkandayıq və davranışlarımız, xüsusilə sahibkarların qaydalara riayət etməsi iqtisadi fəallığa təsir edir. Birgə səylərlə biznes tədricən iqtisadi itkiləri bərpa edəcək", - deyə nazir bildirib.

M.Cabbarov "kölgə iqtisadiyyatı"nın azaldılması istiqamətində strateji xəttin davam etdiriləcəyini diqqətə çatdırıb və bu sahədə indiyədək həyata keçirilən təşviqedici alətlərin müsbət nəticələrini vurğulayıb. Əmək müqavilələrinin bağlanması üçün aparılmış islahatlar nəticəsində son 18 ayda 210 mindən çox yeni əmək müqaviləsinin bağlandığını bildirən nazir bunun iş yerlərinin leqallaşmasında önəmini vurğulayıb. Ticarət və xidmət müəssisələrində ƏDV-nin bir hissəsinin geri qaytarılması ilə bağlı tətbiq olunan onlayn platforma isə iqtisadi dövriyyənin şəffaflaşmasına, bu prosesə ictimai nəzarətin təmin edilməsinə imkan yaradıb. Belə təşviqedici onlayn platformaların gələcəkdə daha geniş tətbiq olunacağı qeyd edilib.

Sonra tədbirdə Elektron Kredit Platformasının təqdimatı keçirilib. Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyəti sədrinin vəzifəsini icra edən Samir Hümbətov onlayn müraciət platforması, kredit alınması üçün müraciət edilməsi qaydaları, kredit şərtləri və s. barədə məlumat verib, həyata keçirilən 2 kredit proqramının şərtlərini şərh edib. Tədbirdə media nümayəndələrinin sualları cavablandırılıb.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# İlham Əliyev dialoq mühitinin formalaşmasında güclü siyasi iradə nümayiş etdirir

## AMİP sədri Arzuxan ƏLİZADƏ: "Dövlət başçısının tapşırığı əsasında partiya rəhbərləri ilə görüşlərin keçirilməsi hakimiyyətin ölkədə yeni siyasi münasibətlər sisteminin formalaşmasında maraqlı olduğunu göstərir"



Əvvəli 1-ci səh.

### Dialoq dövlətin və cəmiyyətin inkişafını şərtləndirən ən vacib elementlərdən biridir

Konkret olaraq siyasi sistemin komponentləri arasında yeni müzakirələrin başlamasına gəldikdə Arzuxan Əlizadə dedi ki, dialoq dövlətin və cəmiyyətin inkişafını şərtləndirən ən vacib elementlərdən biridir: "AMİP olaraq illər ərzində dəfələrlə bu təşəbbüslə çıxış etmişik. Düşünürük ki, bu və ya digər məsələlərin həllinə nail olmaq, ölkədə inam və etimad mühitinin formalaşması üçün iqtidar və müxalifət nümayəndələri arasında dialoqların həyata keçirilməsi vacibdir və ən düzgün yoldur. Siyasi partiya rəhbərləri ilə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev arasında fərdi tanışlıq xarakterli görüşlərin keçirilməsi və təkliflərimizin dinlənilməsi tərəfimizdən müsbət qiymətləndirilir. Hesab edirəm ki, bu təmasların, məsləhətləşmələrin davamı olmalıdır və inanıram ki, olacaq da. Çünki dialoq zəminində qəbul olunan qərarlar, fikir müxtəlifliyi fonunda əldə edilən nəticə hər zaman effektli olur. Əminliyimi şərtləndirən əsas amil isə Prezident İlham Əliyevin dialoq mühitinin formalaşmasında güclü siyasi iradə nümayiş etdirməsi, prosesin şəxsən öz nəzarəti altında olması və bir qədər də sürətlə həyata keçirilməsi istəyini dilə gətirməsidir".

AMİP sədri ilə bu prosesdə, ümumiyyətlə, cəmiyyətin müasirləşən siyasi həyatında rəhbərlik etdiyi partiyanın irəli sürdüyü təşəbbüslər, proqram və təklifləri barədə söhbətləşdik. Onun sözlərinə görə, Milli İstiqlal Partiyası müxtəlif sahələr üzrə, o cümlədən sosial-iqtisadi və siyasi islahatların həyata keçirilməsi ilə bağlı konkret proqrama malikdir: "Həmin proqramın tərkib hissəsi olan siyasi islahatlarla bağlı təkliflər paketimiz zamanında media vasitəsilə ictimaiyyətə açıqlanıb, həmçinin Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə görüş zamanı tərəfimdən ona da təqdim olunub.

Hesab edirəm ki, demokratik cəmiyyətin inkişafı siyasi proseslərdə partiyaların yerinin və rolunun artırılmasını zəruri edir. Biz də bu mövqedən çıxış edərək Azərbaycanda çoxpartiyalı sistemin inkişaf etdirilməsi və siyasi partiyaların demokratikləşmə istiqamətindəki fəaliyyətinin daha əhatəli olması məqsədilə bir sıra addımların atılmasını zəruri hesab edirik. Buraya, ilk növbədə, "Siyasi partiyalar haqqında" qanuna dəyişikliklər edilməsi, beynəlxalq təcrübədə olduğu kimi, fəaliyyətdə olan siyasi partiyaların dövlət büdcəsindən maliyyələşməsinin zəruriliyi, partiyaların normal fəaliyyətinin təmin edilməsi üçün onların dövlət tərəfindən mənzil-qərargahlarla təmin olunması da aid olmaqla bir sıra müddəalar daxildir.

Biz, həmçinin siyasi sistemin təkmilləşdirilməsi məqsədilə proporsional seçki sisteminin bərpası və Milli Məclisin say tərkibinin artırılması və digər bu kimi məsələləri özündə ehtiva edən Konstitusiya dəyişikliklərinin zəruri olduğunu hesab edirik".

AMİP-in təkliflərinin bir qismi isə korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimaiyyətin, xüsusilə də siyasi partiyaların potensialından istifadə olunması ilə bağlıdır. Arzuxan Əlizadənin fikrincə, ayrı-ayrı dövlət strukturlarında bu məqsədlə yaradılmış komissiya və komitələrin tərkibində siyasi partiya təmsilçilərinin, müstəqil media və vətəndaş cəmiyyəti nümayəndələrinin olması bütün sahələr üzrə ictimai nəzarətin gücləndirilməsi baxımından olduqca faydalı olar.

### Ümummilli məsələlərdə müxalifətçilik olmamalıdır

Partiya sədri onu da bildirdi ki, AMİP müxalifətdə olan siyasi partiyadır və təbii ki, iqtidara münasibətdə də müxalif mövqedən çıxış edir, lakin müstəqil Azərbaycanın ilk rəsmi dövlət qeydiyyatına alınmış siyasi partiyası olaraq, AMİP hər zaman öz fəaliyyətini "ümummilli məsələlərdə müxalifətçilik olmamalıdır" prinsipi əsasında qurub. "Yarandığı gündən indiyədək keçən iyirmi səkkiz il ərzində hətta bəzən partiya maraqlarımıza ziyan vursa da, bu prinsipimizə sadiq qalmışıq. Dövlətimizin və xalqımızın maraqları baxımından əhəmiyyətli hesab etdiyimiz qərarların həyata keçirilməsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində, xüsusilə də Qarabağ probleminin həlli və işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində atılan və atılacaq addımlara birmənalı dəstək verməyə hazır olduğumuzu dəfələrlə bəyan etmişik", - deyə Arzuxan Əlizadə bildirdi.

Qeyd edildi ki, AMİP əhatəli beynəlxalq əlaqələrə malik siyasi təşkilatdır. Partiya özündə dünyanın 80-dən artıq ölkəsinin 100-dən çox sağ mərkəz yönümlü siyasi partiyasını birləşdirən Beynəlxalq Demokrat İttifaqının (IDU) 1999-cu ildən etibarən tam, hüquqlu üzvüdür. Bununla yanaşı, Avropa Parlamentinin ən böyük fraksiyası olan Avropa Xalq Partiyası (EPP) ilə 2008-ci ildən etibarən sıx əlaqələri var. Lakin AMİP heç vaxt Azərbaycanla əlaqəli hər hansı xoşagəlməz məsələnin müzakirəyə çıxarılmasına nəinki cəhd göstərməyib, heç buna imkan da verməyib.

Bu barədə danışan Arzuxan Əlizadə dedi: "Bu təşkilatlarda təmsil olunan partiyaların böyük əksəriyyəti öz ölkələrinin hakim partiyalarıdır. Eyni zamanda hər iki nüfuzlu təşkilatda təmsil olunan bir çox partiyalarla AMİP olaraq uzun illərdən bəri davam edən ikitərəfli sıx əməkdaşlığımız da mövcuddur. Bu çərçivədə Avropa Parlamenti, Avropa Komissiyası da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarda dəfələrlə ölkəmizi layiqincə təmsil etmişik və çoxsaylı görüşlərimiz olub. Eyni zamanda ATƏT-in vitse-prezidenti, AXP-nin (EPP) prezidenti, İsveçin Avropa Parlamentində nümayəndə heyətinin rəhbəri və digər nüfuzlu şəxslərlə Bakıda, bəziləri ilə AMİP qərargahında, bəziləri ilə partiyamızın təşkilatçılığı ilə keçirilən tədbirlər çərçivəsində, bir çoxu ilə isə ölkəmizə etdikləri rəsmi səfərlər zamanı görüşmüşük. Lakin, tam məsuliyyəti ilə deyirəm ki, hətta ölkə daxilində aparılan siyasətlə bağlı müəyyən narazılıqlarımız olsa belə bir dəfə də olsun Azərbaycanla əlaqəli hər hansı xoşagəlməz məsələnin müzakirəyə çıxarılmasına nəinki cəhd göstərməmişik, heç imkan da verməmişik. Mövqeyimiz hər zaman belə olub ki, ölkədaxili məsələləri və narazılıqları elə ölkə daxilində də həll etmək daha məqsədəuyğundur. Bu vaxta qədər ölkədə keçirilən müxtəlif rəngli seçkilərdən narazı qalan heç bir AMİP namizədi indiyədək Avropa Məhkəməsinə üz tutmayıb. Ən əsası da Avropa Məhkəməsinin prosedur qaydasına müvafiq olaraq baxılacaq məhkəmə işinin adının "filankəs (yəni müraciət edən şəxsin adı, soyadı) Azərbaycana qarşı" ifadəsini prinsipcə qəbul etmədiyimiz səbəbi ilə.

Lakin bütün yuxarıda sadaladıqlarımla yanaşı, iqtidar tərəfindən qəbul olunan və doğru olmadığını hesab etdiyimiz qərarlara, atılan səhv addımlara münasibətdə hər zaman müxalif mövqedən çıxış etmək və müxalifətdə olan partiyanın əsas vəzifəsi də elə bu hakimiyyəti yanlış qərarların qəbulundan çəkinməyə çağırmaqla alternativ təklifləri irəli sürməkdən ibarət olmalıdır".

### Siyasi mədəniyyətin inkişaf etdirilməsi baxımından təkmilləşməyə ehtiyac var

Arzuxan Əlizadə yeniləşən siyasi sistemdə müxalifətin iştirakı, rolu, funksiyası, fəaliyyəti barədə fikirlərini də qəzetimizlə bölüşdü. Onun sözlərinə görə, yeniləşən siyasi sistemdə siyasi partiyaların da yeniləşməsinə ehtiyac var və bu, təkcə müxalifətdə olan siyasi partiyalara aid deyil, eləcə də hakimiyyət partiyasına və iqtidaryönümlü bütün siyasi partiyalara aiddir: "Məzmun və forma etibarilə daha məhsuldar və effektiv gedişləri özündə ehtiva edən yeni taktiki addımların atılması üçün də, ilk növbədə, yeni konsepsiyanın müəyyənləşdirilməsi həyata keçirilməlidir.

Hesab edirəm ki, müxalifətin başlıca məqsədi yalnız iqtidarın bu və ya digər sahədəki fəaliyyətini tənqid etməklə yekunlaşmamalı, eyni zamanda cəmiyyətdəki mövcud siyasi qüvvələr arasında sivil münasibətlərin qurulmasını, ümummilli məsələlərin həllində vahid mövqe nümayiş etdirilməsini də əhatə etməlidir. Ən əsası isə, cəmiyyətdə siyasi mədəniyyətin inkişaf etdirilməsi baxımından təkmilləşməyə ehtiyac var.

Sosial reallıq, cəmiyyətdə şəxsiyyətlər arasındakı münasibətlər, müsbət mənəvi və əxlaqi dəyərlər sisteminin mövcudluğu, ictimai rəy və faydalı ənənələr siyasi mədəniyyətin formalaşmasına təsir göstərən əsas amillərdir. Təəssüf ki, bü gün öz fəaliyyətində sadaladığım bu dəyərlərdən uzaq olan siyasi qüvvələr də mövcuddur ki, ilk olaraq onların öz fəaliyyətlərini yenidən təftiş etməsinə ehtiyac var. Çünki məhz oturuşmuş siyasi mədəniyyət sistem daxilində siyasi təsisatların qarşılıqlı münasibətlərini, eləcə də onların sosial sistemin başqa ünsürləri ilə əlaqələrini normalar, dəyərlər və ənənələr vasitəsilə tənzimləyir".

### Köhnə təfəkkürdən əl çəkə bilməyənlər fəaliyyətlərini ölkədə xaotik durumun yaranmasına kökləyiblər

AMİP sədrinin özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalif partiyalar barədə mülahizələrinin nədən ibarət olduğunu da öyrəndik. Müxalifət partiyalarının demokratik və hüquqi dövlətin ayrılmaz tərkib hissələri olduğunu, yaşadığımız zamanın özlüyündə bütün siyasi qüvvələrin dövlətçilik və milli maraqlar uğrunda bir araya gəlməsini zəruri etdiyini deyən Arzuxan Əlizadənin sözlərinə görə, bu cür birlik cəmiyyətimizdə oturuşmuş siyasi münasibətlər sisteminin və siyasi mədəniyyətin formalaşması ilə yanaşı, ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsinə öz töhfəsini verə bilər ki, bundan da geniş anlamda həm siyasi qüvvələr, həm də bütövlükdə, Azərbaycan xalqı udar.

Arzuxan Əlizadə təəssüf hissi ilə onu da bildirdi ki, müxalifət cəbhəsində də özünü sağlam siyasi münasibətlərdən kənarda saxlayan qüvvələr mövcuddur: "Bu qüvvələr tarixdən nəticə çıxarmaq əvəzinə hələ də köhnə təfəkkürdən əl çəkə bilməyiblər və fəaliyyətlərini yalnız ölkədə xaotik durumun yaranmasına yönəlik kökləyiblər. Son vaxtlar bu tip təşkilatlara rəhbərlik edən şəxslərin videoformatda apardıqları müzakirələrin ictimailəşdirilməsi də dediklərimizi bir daha çılpaqlığı ilə ortaya qoydu və bunların hansı təfəkkür sahibləri olduğunu bir daha nümayiş etdirdi. Sayları az olmasına baxmayaraq, bu cür qüvvələr hələ də bütövlükdə, müxalifət adından danışmağa, onun funksiyasını təkbaşına mənimsəməyə çalışırlar ki, bu da heç bir halda qəbul edilə bilməz və edilmir də. Artıq tam əminliklə demək olar ki, qeyd etdiyiniz kateqoriyadan olan qüvvələr cəmiyyət içərisində də öz dayaqlarını gün-gündən itirməkdədirlər və öz fəaliyyətlərinə düzəliş etməyəcəkləri halda siyasi səhnədən tamamilə silinəcəklər".

### Hakimiyyətə dəstək verməyə hazır olduğumuzu bəyan etmişik

AMİP sədri pandemiyaya qarşı dövlət səviyyəsində aparılan mübarizə barədə də fikirlərini bölüşərək dedi: "Obyektivlik naminə deməliyəm ki, COVID-19 koronavirusunun vətəndaşımızı təhdid etdiyi ilk gündən dövlət səviyyəsində pandemiyaya qarşı mübarizə sahəsində bir sıra mühüm addımlar atıldı. Belə ki, Prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Vəziyyətin nəzarət altına alınması və kütləvi yoluxmanın qarşısını almaq məqsədilə təhsil prosesinin dayandırılması, bütün kütləvi tədbirlərin ləğv edilməsi, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması da daxil olmaqla, bir sıra qabaqlayıcı və effektli hesab olunan qərarlar qəbul edildi. Pandemiya zamanı Prezidentin keçirdiyi müşavirələr, vətəndaşlara ayrılan sosial yardım, sahibkarlara və sosial həssas qruplara dəstək, ölkədə dezinfeksiyaedici məhsulların, spirt və digər qoruyucu vasitələrin istehsalının artırılması, gündə 250 min ədəd qoruyucu maska istehsal edən müəssisənin açılması və sair bu kimi tədbirlərin həyata keçirilməsi, əlbəttə ki, koronavirusun qarşısının alınmasında müstəsna rol oynadı.

Eyni zamanda Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının koronavirus pandemiyasına həsr olunmuş Zirvə toplantısının, mayın 4-də isə Qoşulmama Hərəkatının videokonfransının keçirilməsi pandemiya dövründə Azərbaycanın həmçinin beynəlxalq təşəbbüslərdə oynadığı rolu da təsdiqləmiş oldu".

Hazırkı dönəmdə pandemiya ilə mübarizənin təkcə hakimiyyətin və ya dövlət strukturlarının üzərinə düşən vəzifə olmadığını deyən partiya sədrinin sözlərinə görə, dövlət qurumları bununla bağlı nə qədər birbaşa məsuliyyət daşısalar da, bu qorxunc virusla mübarizə həm də hər bir vətəndaşın bilavasitə vəzifəsidir: "Biz də cəmiyyətin tərkib hissəsi olan siyasi partiya olaraq, hələ martın 25-də Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən pandemiya ilə əlaqədar ilk qadağalar tətbiq edilməyə başlanarkən Operativ Qərargahın qərarlarına dəstək bəyanatı ilə çıxış etdik. AMİP olaraq həmin müraciətlə görülən bütün qabaqlayıcı tədbirləri təqdir etdiyimizi və vəziyyətin normallaşması üçün Azərbaycan hakimiyyətinə dəstək verməyə hazır olduğumuzu da bəyan etmişik. Eyni zamanda mövcud şəraitdə ehtimal edilən fəsadların aradan qaldırılması və gələcəkdə yarana biləcək problemləri önləmək məqsədilə bir sıra qabaqlayıcı addımların atılmasını məqsədəuyğun hesab edərək, bu yöndə təkliflərimizi də vermişik. Onu da deyim ki, sonrakı mərhələdə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən bizim də irəli sürdüyümüz bir sıra təklifləri özündə ehtiva edən bu və ya digər qərarlar qəbul olunub".

Arzuxan Əlizadə dedi ki, qəbul olunan qərarların və birgə mübarizəmizin virusun daha geniş yayılmasının qarşısını almağa kömək edəcəyinə əmindir və unutmamalıyıq ki, biz cəmiyyət olaraq yalnız birlikdə bu bəladan qurtula bilərik: "Lakin hökumət yalnız qadağaların tətbiqi ilə kifayətlənməməli, "Evdə qal" çağırışı etdiyi insanların, xüsusilə də əhalinin aztəminatlı hissəsinin karantin dövrü üçün zəruri ehtiyaclarının təmin edilməsi qayğısına qalmalıdır. Sərt karantin rejiminin tətbiqi ilə əlaqədar ziyan görən kommersiya qurumlarına, iş adamlarına, ciddi maddi sıxıntı yaşayan sıravi vətəndaşlarımıza dəstək olmalıdır. Eyni zamanda bu və ya digər səbəbdən hazırda xaricdə olan vətəndaşlarımızın ölkəyə gətirilməsi üçün həyata keçirilən fəaliyyət genişləndirilməli və sürətləndirilməlidir.

Mən də fürsətdən istifadə edərək bir daha hər kəsi bu çətin günlərdə dövlətimizin yanında olmağa, qəbul edilmiş qərarları anlayışla qarşılamağa, heç bir halda panikaya yol verməməyə və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çağırıram".

### Korrupsiyaya qarşı mübarizə tədbirləri alqışlanmalıdır

AMİP sədri korrupsiyaya qarşı mübarizə tədbirləri barədə də danışdı. Bildirdi ki, korrupsiya və rüşvət dövlətin və cəmiyyətin inkişafının qarşısında ən böyük bəladır: "Açıq demək lazımdır ki, hətta Prezidentin belə dəfələrlə ictimaiyyət qarşısında vəzifəli şəxslərə rüşvət və korrupsiya hallarına yol verməmələri ilə əlaqədar çox sərt şəkildə xəbərdarlıq etməsinə baxmayaraq, hələ də bu xəbərdarlıqlardan nəticə çıxarmayan kifayət qədər məmur var. Korrupsiya və rüşvətxorluq belə insanların həyat tərzinə çevrilib və nəticə də ortadadır. Bu baxımdan istər DTX, istərsə də prokurorluq orqanları tərəfindən son dövrlərdə aparılan əməliyyatlar alqışlanmalı və bu prosses davamlı şəkil almalıdır. Lakin o da qeyd olunmalıdır ki, korrupsiyaya qarşı mübarizədə təkcə güc strukturlarının keçirdiyi əməliyyatlar təbii ki, yetərli deyil. Bu sahədə dövlətin cəza tədbirləri ilə yanaşı, ictimaiyyətin, qeyri-hökumət qurumlarının, tanınmış ziyalıların, ictimai-siyasi xadimlərin maarifləndirici addımlarına, sözlərinə, müraciətlərinə də ciddi ehtiyac var. Bütün vətəndaş cəmiyyəti, bütün xalqımız bu məsələdə dövlətə dəstək verməli, bütün sahələr üzrə ictimai nəzarət gücləndirilməlidir. İctimai nəzarət nə qədər güclü olacaqsa, bu kimi hallara qarşı mübarizə də bir o qədər çox effektli olacaq".

O da vurğulandı ki, korrupsiya ilə uğurlu mübarizə dövlət vəzifəsi daşıyanların gəlirləri üzərində ciddi nəzarətin olmasını, onların gəlirləri, əmlakları barədə mənbəyi, ödənilən vergilərin miqdarı göstərilməklə deklarasiya verilməsini tələb edir: "Dünyanın aparıcı ölkələrində bu deklarasiya sistemi fəaliyyət göstərir və bizdə də bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac var".

Arzuxan Əlizadənin fikrincə, inhisarçılığın tamamilə ortadan qaldırılması da korrupsiyaya qarşı mübarizənin başlıca metodlarındandır. "Çünki inhisarçılıq inkişafa maneçilik törədən əsas amildir. Məhz inhisarçılıq azad rəqabətə yol vermir, korrupsiyaya meydan açır, var-dövlətin ayrı-ayrı korrupsioner məmurların cibinə axmasına xidmət edir. Odur ki, ölkə iqtisadiyyatına və mənəviyyatına ölümcül zərbə vuran inhisarçılığa qarşı amansız mübarizə aparılmalı və bunun üçün də Rəqabət Məcəlləsi qəbul olunmalıdır", - deyə o bildirdi.

### AMİP dövlət proqramlarını, sosial paketləri təqdir edir

Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyasına da münasibət bildirən Arzuxan Əlizadənin sözlərinə görə, inkişaf etmiş dünya dövlətlərinin siyasətinin əsasında həmişə o amil dayanır ki, dövlətin iqtisadiyyatı inkişaf etdikcə və iqtisadi gücü artdıqca, paralel olaraq ölkə əhalisinin də sosial müdafiəsi gücləndirilsin. Yəni iqtisadiyyatdan əldə olunan gəlirlər əhalinin sosial müdafiəsinə, insanların maddi rifahının güclənməsinə yönəldilsin.

Partiya sədri bu baxımdan sosial müdafiə paketlərinin imzalanmasını, dövlət proqramlarının həyata keçirilməsini təqdir edərək dedi: "Azərbaycan vətəndaşlarının da sosial inkişafının təminatları Azərbaycan Konstitusiyası ilə təsbit olunmuşdur. Eyni zamanda Prezident İlham Əliyev davamlı olaraq çıxışlarında Azərbaycanda sosial-iqtisadi islahatların və sosial siyasətin prioritet istiqamət təşkil etdiyini vurğulayır. Dövlət başçısı tərəfindən son dövr ərzində iki sosial müdafiə paketinin imzalanması, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları, təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşğulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması və s. sahələr üzrə qəbul edilən proqramlar da, əlbəttə ki, əhalinin sosial rifahının yüksəlməsinə yönələn addımlardır və tərəfimizdən də təqdir olunur.

Ölkə üzrə minimum əməkhaqqının 130 manatdan 250 manata qaldırılması, habelə valideyn himayəsindən məhrum uşaqların, I və II qrup əlil uşaqların təhsil haqlarının ödənilməsinin dövlət büdcəsi tərəfindən həyata keçirilməsini təmin edən qanunvericilik aktlarının qəbulunu təhsil və səhiyyə sahəsində islahatların növbəti mərhələsi kimi olduqca əhəmiyyətli hesab edirəm. Eyni zamanda ASAN, ABAD, DOST xidmətlərinin, özünüməşğulluq proqramlarının icra edilməsi də tərəfimizdən sosial islahatların əməli nəticəsi kimi dəyərləndirilir".

Bütün bunlarla yanaşı, partiya sədri bildirdi ki, pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın, işsizliyin azaldılması, habelə sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı davamlı addımlar atılmalıdır.

Sonda AMİP sədri bildirdi ki, islahatlar həm də yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir: "Hətta inkişaf etmiş ölkələrdə də daima islahatlar aparılır. Ölkədə iqtisadi inkişaf prosesinin uğurla davam etdiriləcəyi təqdirdə bu, gələcəkdə sosial sahədə də daha geniş islahatların aparılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə real imkanlar yaradacaq. Bu isə hər birimizin istəyidir".

***Söhbəti yazdı: Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Neftçalada “Əsgərə salam” aksiyası keçirilib






Neftçala Rayon İcra Hakimiyyəti Heydər Əliyev Fondunun və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə başladığı təşəbbüsə qoşulub.

Neftçala rayonunda fəaliyyət göstərən müxtəlif müəssisə, idarə və təşkilatlar Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, bütün şəhidlərimizin xatirəsinə və həqiqi hərbi xidmətdə olan əsgərlərimizə dəstək məqsədilə “Əsgərə salam” aksiyasına qoşulub.

Rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu strategiyası Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il sərəncamına əsasən, 26 iyun “Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü” elan olunmuş və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilməkdədir. M.Seyidov tədbirdəki çıxışını bu sözlərlə yekunlaşdırıb: “Bunun nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrilib. Bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycanın güclü, sarsılmaz ordusu var. Mənəvi-psixoloji hazırlıq cəhətdən də fərqlənən ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Neftçala rayonu da daxil olmaqla, respublikanın hər bir regionundan olan vətən oğullarının iştirakı ilə 2016-cı ilin Aprel döyüşlərində ordumuzun əks-hücum əməliyyatı zamanı düşmənə sarsıdıcı zərbələri dediklərimizin bir daha təsdiqidir. Aprel döyüşləri xalqla ordunun birliyini daha da möhkəmləndirdi, yeniyetmələrdə, gənclərdə könüllülük, səfərbərlik anlayışını irəli plana çıxardı, vətənpərvərlik duyğularını yüksəltdi, hər bir fərdi əsgərləşdirdi və böyük qələbənin uzaqda olmadığını təsdiqlədi. Ali Baş Komandanın rəhbərliyi altında Böyük Qayıdış planının bizləri Şuşaya apacağına əminik”.

***“Azərbaycan”***

# Beynəlxalq aləm



## APEC sammiti onlayn formatda keçiriləcək

Yeni Zelandiyanın sədrliyi ilə Asiya Sakit Okean İqtisadi Tərəfdaşlığı (APEC) sammiti 2021-ci ildə onlayn formatda keçiriləcək. Bu barədə Yeni Zelandiyanın Baş Nazirinin müavini Uinston Piters məlumat verib.

Onun dediyinə görə, hazırda koronavirusun yayılması ilə əlaqədar çoxsaylı yüksəkvəzifəli qonaqların Yeni Zelandiyada toplaşması məqsədəuyğun deyil.

Xatırladaq ki, cari ildə APEC-ə sədrlik Çilidən Malayziyaya keçib. Təşkilatın üzvü olan dövlətlərin liderlərinin növbəti toplantısının noyabrın 11-12-də Malayziyanın Putracaya şəhərində keçirilməsi planlaşdırılır. Həmin sammitdən sonra təşkilata sədrlik Yeni Zelandiyaya keçəcək.

Qeyd edək ki, hazırda APEC-ə 19 ölkə daxildir. Onlardan 12-si - ABŞ, Avstraliya, Bruney, İndoneziya, Kanada, Malayziya, Sinqapur, Tailand, Filippin, Cənubi Koreya, Yaponiya və Yeni Zelandiya təşkilatın təsisçiləridir. Çin (1991-ci il), Meksika və Papua-Yeni Qvineya (1993-cü il), Çili (1994-cü il), Rusiya, Vyetnam və Peru (1998-ci il) sonradan təşkilata qoşulub.

## Sabiq Baş Nazir 5 il həbs cəzasına məhkum olundu



Fransanın sabiq Baş Naziri Fransua Fiyon və onun həyat yoldaşı Penelopa Fiyonun məhkəmə işi başa çatıb.

Keçmiş Baş Nazir, onun həyat yoldaşı və köməkçisi Mark Julo 2017-ci ildə sağçı namizədin prezidentlik kampaniyasını pozmuş “saxta iş yerləri yaradılması işi” üzrə prosesdə təqsirli biliniblər. Onlar Milli Assambleyaya 1,15 milyon avro məbləğində vəsait ödəməlidir. Bu vəsaitin 401 min avrosu F.Fiyonun həyat yoldaşının saxta işə görə aldığı maaşların kompensasiyası, 679 min avrosu isə Mark Juloya görə ödənilməlidir.

Sabiq Baş Nazir Fransua Fiyona ən ağır cəza - 2 ili qapalı, 3 ili şərti olmaqla 5 il həbs cəzası verilib. Məhkəmənin qərarına əsasən, o, 375 min avro cərimə ödəməli və 10 il seçkilərdə iştirak etməməlidir. Penelopa Fiyon və Mark Julo 3 il şərti həbs cəzası alıblar. Fiyonların vəkili məhkəmə qərarından apelyasiya şikayəti verəcəyini bildirib. Xatırladaq ki, 2017-ci ildə Fransa prezidentliyinə namizəd olan Fransua Fiyon Milli Assambleyanın deputatı olarkən dövlət vəsaitinin mənimsənilməsi və həyat yoldaşı Penelopa Fiyonun və övladlarının adına “saxta iş yerləri yaradılması işi” üzrə ittiham olunurdu.

## Dünya əhalisi artıq koronavirus təhlükəsinə inanır



Planetimizin əhalisinin əksəriyyəti bu fikirdədir ki, koronavirus təhlükəsi şişirdilməyib. Bu barədə TASS İnformasiya Agentliyi xəbər verir.

Bildirilir ki , “Romir” holdinq və Gallup International təşkilatları tərəfindən aparılan sorğunun nəticələrinə əsasən, aprel ayı ilə müqayisədə koronavirus təhlükəsini şişirdilmiş sayan insanların sayı 33 faizdən 41 faizə yüksəlib. Buna baxmayaraq, təhlükəni şişirdilmiş sayanların sayı mart ayında qeydə alınan göstəricidən (49 faiz) az olub. Respondentlərin əksəriyyəti (54 faiz) əvvəlki kimi təhlükənin ciddiliyinə inanır.

Koronavirus təhlükəsinin şişirdildiyinə ən çox Bosniya və Herseqovinada (66 faiz), Qazaxıstanda (61 faiz), Moldovada və Bolqarıstanda (hər birində 58 faiz), ən az isə Böyük Britaniyada və Cənubi Koreyada (hər birində 15 faiz), həmçinin Yaponiyada (18 faiz) inanırlar.

Sorğunun nəticələri insanların 67 faizinin özlərinin və yaxınlarının sağlamlığından ciddi narahat olduğunu göstərib.

Yoluxmadan ən çox Cənubi Koreyada (86 faiz), Filippində (84 faiz) və Honkonqda (80 faiz), ən az isə Avstriyada (42 faiz), Qazaxıstanda (46 faiz) və Bolqarıstanda (51 faiz) qorxurlar.

## İranda terrorçular hərbi avtomobilə hücum ediblər

İranın Sistan və Bəluçistan əyalətində İslam İnqilabı Keşikçilər Korpusu (SEPAH) üzvlərinin avtomobil karvanına edilən terror hücumunda ölən olmayıb.

APA-nın Tehran bürosunun məlumatına görə, bunu İran Parlamentinin Zahidan şəhərindən olan nümayəndəsi Fədahüseyn Maliki deyib.

Onun sözlərinə görə, hücum “Ceyşül-zülm” (“Ceyşül-ədl” terror təşkilatına İran rəsmiləri bu adı veriblər) terror qruplaşması tərəfindən təşkil olunub: “SEPAH qüvvələrini daşıyan iki avtomobil yoldan keçərkən yol kənarında quraşdırılmış iki bombadan biri partladılıb. Hadisə nəticəsində xəsarət alan olmayıb”.

Maliki terror hücumu nəticəsində bir neçə SEPAH üzvünün əsir götürülməsi ilə bağlı yayılan məlumatları təkzib edib.

# Külli miqdarda narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması sahəsində tədbirləri davam etdirir.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, bu tədbirlər nəticəsində iyunun 29-da külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

Dünən saat 23:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Beyləqan rayonunun Aşağı Çəmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində iki naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkarlanıb. Sərhəd pozucularının silahlı olmaları, üzərlərində iki kisədə yük olması müşahidə edilib.

Sərhəd zastavası “Silaha” komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən “Dayan!” əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb, sərhəd naryadına qarşı odlu silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

Sərhəd naryadı tərəfindən “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq silah tətbiq olunmuş, sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə yerində ölüb. Digər sərhəd pozucusu ərazinin sıx meşəlik, hava şəraitinin isə qaranlıq olmasından istifadə edərək geri qaçıb.

Əraziyə baxış zaman bir ədəd lüləsi kəsilmiş tüfəng, iki kisədə təxmini çəkisi 33 kiloqram olan narkotikə bənzər maddə aşkarlanıb.

Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib.

Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin və Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

***“Azərbaycan”***


## Bakı Şəhər İcra Hakimiyyəti “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi *açıq tender elan edir*

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstərilən LOT üzrə tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

**LOT-1.** Fasad işıqlandırmasının təmiri və bərpası üçün lazımi mal-materialların satın alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 800 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Təşkilat: “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi**
**Beynəlxalq Bankın Yasamal filialı**
**Kod: 805562**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT BIK: IBAZAZ2X**
**H/h: AZ93IBAZ38010019449667485216**
**VÖEN: 9900013961**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 21.07.2020-ci il saat 14:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *tenderin əsas şərtlər toplusuna əlavə olunmuş standart formalara uyğun müvafiq məlumatlar.*

İddiaçılar LOT üzrə tender təkliflərini 30.07.2020-ci il saat 14:00-a qədər dövlət satınalmalarının vahid internet Portalına yerləşdirməlidirlər.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Xələf Hacıyev**
**Telefon: (012) 565-49-80**

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələri üçün yağların və sürtkü materiallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 iyul 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **07 avqust 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələri üçün turbo kompressorların təmiri işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 iyul 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **07 avqust 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***


## Cinayət işi məhkəməyə göndərilib

Tovuz rayon sakini Firudin Ələkbərlinin ötən il sentyabrın 13-də bir neçə dəfə atəş açılması nəticəsində qəsdən öldürülməsi faktı üzrə Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 228.1-ci (qanunsuz olaraq odlu silah saxlama, daşıma və ya gəzdirmə) maddələri ilə cinayət işi başlanaraq, Baş Prokurorluğun İstintaq idarəsində istintaq aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, istintaqla cinayətin Tovuz rayonunun Yanıqlı kənd sakini Əli Şamıyev tərəfindən qanunsuz olaraq üzərində gəzdirdiyi “Makarov” konstruksiyalı tapança ilə aralarında şəxsi münasibətlər zəminində yaranmış mübahisə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edilib. Cinayət Məcəlləsinin həmin maddələrində nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinən Ə.Şamıyev barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə müvafiq ekspertizalar təyin edilib, məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, maddi sübutlar götürülüb və digər prosessual hərəkətlər yerinə yetirilib.

İyunun 29-da cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# "Azərişıq mobil tətbiqi" ilə balansını evdən çıxmadan artır

**"Azərişıq" ASC-nin smart-kart sayğacı olan abunəçiləri evdən çıxmadan kart balansını artıra biləcək. Artıq bu gün əminliklə deyə bilərik ki, bu istiqamətdə işlər yekunlaşıb, bütün texniki məsələlər həll edilib.**

Ölkənin kommunal sektorunda ilk dəfə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti belə bir innovativ və günün tələblərinə uyğun yeniliyə imza atmışdır. "Azərişıq mobil əlavəsi" istifadəçiləri smart-kart balanslarını evdən çıxmadan smartfonları vasitəsilə artıra biləcəklər. Mobil uyğulamanı Play marketlərdən rahatlıqla əldə edə bilərsiniz.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də COVID-19 virusunun yayılmasının qarşısının alınması tədbirləri həyata keçirildiyi bir dövrdə abonentlərimizin evdən çıxmadan bir sıra əməliyyatları "Azərişıq" ASC-nin rəsmi saytı və ya xüsusi mobil əlavələr vasitəsilə həyata keçirməsi təmin edilmişdir.

Bu tipli layihələr texnoloji imkanlardan daha çox sosial xarakter daşıdığından hazırki karantin dövründə əhalinin ümumi təyinatlı terminallar, nağd ödəniş vasitələri və s. daha az təmasda olması vacib şərtlərdəndir. Məhz bu səbəbdən hər iki tərəf mütəxəssisləri qısa müddət ərzində mobil telefonla




smart-kart balansının artırılmasının fərdiləşdirilmiş imkanını işləyib hazırladı.

Layihənin prioritet şərtlərindən biri də cihazın və mobil tətbiqin abonentlər tərəfindən istifadə sadəliyi idi ki, buna da nail olundu.

İlkin mərhələdə istifadəçi smartfona qoşulan kart oxuyucunu əldə etməlidir ki, smart-kartının balansını evdən çıxmadan artıra bilsin. İstifadəsi cox rahat olmaqla yanaşı, heç bir əlavə proqram açmadan kart oxuyucu smartfona qoşulur, "Azərişıq mobil tətbiqi" açılır və smart-kart oxuyucuya daxil edilərək menyudaki "OXU" düyməsi sıxılaraq kart məlumatları oxunur. Daha sonra altdakı səkmədən məbləğ daxil edilir və "ÖDƏ" düyməsi sıxılır, açılan pəncərədə ödəniş kartı məlumatları daxil edilir və "OK" düyməsi sıxılır.

Bir neçə saniyə ərzində ödənilən məbləğ smart-karta yazılır. Beləliklə də smart-kartınızı sayğaca daxil etməklə balansınızı artırmış olursunuz.

# REQUEST FOR EXPRESSIONS OF INTEREST CONSULTING SERVICES - INDIVIDUAL CONSULTANTS' SELECTION

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No./Credit No./ Grant No.: P122812, Ln 8286Az**

**Assignment title: Support to establishment of Agricultural Insurance Information System (AIIS)**

The Government of Azerbaijan and the World Bank is implementing "Agricultural Competitiveness Improvement Project" (ACIP) in Azerbaijan. The overall objective of the Project is to facilitate the access of agricultural producers to markets by strengthening sanitary and phyto-sanitary services, enhancing selected value chains and providing financial services to agribusiness enterprises.

The Project is managed by the Agro Credits and Development Agency (ACDA), which is the Ministry of Agriculture's agency for overseeing international agricultural development projects, primarily through the Project Management Unit (PMU) established within ACDA.

The ACIP (Client) provides support to development of agricultural insurance system in Azerbaijan. ACIP support to the agricultural insurance system will be focused on (i) supporting the AIF with designing the Agrarian Insurance Mechanisms (AIM) and ensuring access of the staff engaged in designing of the AIM to the international best practices.

**Job description and Expected Outcomes**

Agricultural Insurance Information System (AIIS)

The AIIS will be established with the objective to automize conclusion of insurance contracts, handling of insurance claims, conduct insurance risk assessment and process of appointment of independent agrarian insurance experts. The process of setting up the AIIS will be done under the direct guidance and support of consultants provided by Turkish State Agrarian Insurance Company - TARSIM.

The AIIS will include the following 11 modules:

- "electronic cabinet" module;
- information/awareness" module for submission of information notice and registration of notifications sent;
- "integration with other systems" module; implementation of integration processes with other information systems and resources via EIS through the module "Integration with other systems";
- "insurance" module for entering the information required to conclude an insurance agreement, automatic drawing up of insurance and reinsurance contracts, making changes to these agreements;
- "assessment and damage control" module for analysis of data, risk assessment, damage control and quantification, determination of insurance premiums, insurance payments and expenses;
- "expert" module for entering risk analysis and insurance event information, appointment of experts for risk analysis and insurance event, implementation of expert processes, expert assessment;
- "finance and payment" module for conducting electronic payments and calculations;
- "reports" module;
- "administration" module;
- "complaint" module to enter the track information on legal issues;
- "process processing" module for managing processes (collecting, processing, storing information)

The objective of the assignment is to support the Agrarian Insurance Fund (The Client) with setting up the Agrarian Insurance Information System. A team of 10 individual consultants will be formed with primary goal of establishing the AIIS. The assignment will be implemented under direct guidance and supervision of TARSIM specialists. The group will consist of team leader and the following specialists:

- Team Leader -1 expert
- Business analysts - 3 experts
- Java Developer - 3 experts
- Full-stack(Web) Developer - 1 expert
- DB Developer - 1 expert
- Android Developer - 1 expert

The assignment is expected to be started from August/September 2020 for next 12 months. Timing and working arrangement is full-time engagement.

**Qualification and Experience requirements for the Consultant**

- Team Leader -1 expert
- Higher education in IT, Business Administration, Management, Automation and similar field;
- Minimum 10 years' experience in the analogical field and at least 5 years experience in management;
- Participation in the implementation of large-scale local and international projects/Knowledge of COBIT and ITIL standards;

- **Business analysts - 3 experts**
- Higher education in IT, Business Administration, Management, Automation and similar field
- Minimum 7 years experience in IT field, minimum 4 years experience in similar position
- Participation in large-scale projects/Participation in international projects, international certificates and experience in insurance will be preferred.

- **Java Developers - 3 experts**
- Higher education in IT (or similar) systems;
- Minimum 5 years experience in similar field;
- Ability to work in the following areas:
- Java 8 / Java EE / Java SE;RESTful and SOAP;SQL and PL / SQL; (Spring MVC, Spring Boot desirable desirable); Web servers (Apache Tomcat); GIT system;

- **Full-stack(Web) Developer - 1 expert**
- Higher education (information technology preferred)
- Minimum 3 years of similar experience, ability to work in the following areas: Knowledge of PHP, HTML, CSS, JavaScript; Writing Linux and shell scripts; Cloud technologies: Amazon, Rackspace, etc.
- Backgrounds: Gearman, Redis
- Search: Elasticsearch, Sphinx, Solr
- Cache: Vernick, Memcached, APC / OpCache
- Monitoring: Nagios
- Database: MySQL, MongoDB, PostgreSQL, SQL / JSON (Cassandra,)
- Web Services: (SOAP, RESTful)

- **DB Developer - 1 expert**
- Higher education in IT (or similar)
- Minimum 5 years experience in similar field
- Experience with database (Oracle, Postgre SQL); Knowledge of SQL, PL / SQL, MS SQL Server and Oracle;
- Preferred with International Certificates (Oracle Database Certified Associate, Oracle PL / SQL Developer Certified Associate)

- **Android Developer - 1 expert**
- Higher education (information technology preferred)
- Minimum 3 years experience in this field;
- Ability to write accurate and readable code;
- Knowledge of Java 8, RxAndroid, Dagger 2, Retrofit 2, GreenDao 3, SQLite, ButterKnife, Glide, Play Services, MVP Design Pattern

**General requirements for all positions:**

- Modern knowledge and skills in the field of development of methodological and teaching materials
- Experience in Training/Education is desirable
- Ability to work in a team and leadership skills
- Ability to communicate
- Possibility of regular trips to the regions
- Foreign language skills are desirable (English, Turkish, Russian)
- Experience in insurance is advantageous
- Office programs knowledge

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014 ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by July 15, 2020.

Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project

**Attn: Mr. Anar Azimov**
**Project Director**
**AZ1108, Ziya Bunyadov avenue 1965, Chinar Park Business Center, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 18**
**E-mail:a.azimov@akia.gov.az;anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com;nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az, firdovsi.aghashirinov-@asf.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00

*Təkrar*

# "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif kabel məhsullarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1.** "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif kabel məhsullarının satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev, telefon: 440-39-93 daxili (28-91) zaur.abdulla@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 iyul 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **28 iyul 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **29 iyul 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aparatın balansında olan 7 (yeddi) ədəd avtomobil üçün odsöndürən balonların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 03 iyul 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Azərbaycan Sənaye Bankı" ASC-nin İdarə Heyətinin sədri

**DOĞAN TANDOĞANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi

**AZƏR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Şuşa Rayon Məhkəməsinin sədri Allahverən Həsənova anası

**SİDİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Samir Şərifov ailəsi ilə birlikdə Əfəndiyevlər ailəsinə

**İNESSA XANIMIN**

uzunsürən xəstəlikdən sonra vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rauf Şərifov Şaiq və Elşən Əfəndiyevlərə əzizləri

**İNESSA XANIMIN**

uzunsürən xəstəlikdən sonra vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Biləsuvardan Əzizağa Hətəmov Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımova əzizi

**DURNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Güləddin Dadaşov ailəsi ilə birlikdə Sabir Babayevə həyat yoldaşı

**DİLARƏ XANIM BABAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Güləddin Dadaşov ailəsi ilə birlikdə Nadir Aslanova əzizi

**ŞAHLAR XƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov və metropolitenin kollektivi "Bakı Metropoliteni" QSC sədrinin müşaviri vəzifəsində çalışmış Azərbaycan Tunelçilər Birliyinin sədri Şaiq Əfəndiyevə həyat yoldaşı

**İNESSA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**NAMİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi

**MÜSEYİB HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5734
Sifariş 1616
Qiyməti 40 qəpik